

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

02 sentyabr
2026-cı il,
çərşənbə
№ 157 (7224)
Qiyməti
60 qəpik


## Azərbaycan bundan sonra da beynəlxalq məsələlərdə çoxtərəflilik prinsiplərinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək




Bax səh. 2

## ŞƏT üçün Azərbaycan nümunəsi

Bax səh. 4

## Bişkekdən görünən Azərbaycan



Bax səh. 5

## Türkiyə-Azərbaycan "yaşıl enerji" əməkdaşlığı genişlənir

Bax səh. 6

## Avropada qazın qiyməti artır...

Qitə ölkələri yanacaq mənbələrinin artırılmasına çalışır

Bax səh. 6

## ABŞ və Şimali Koreya arasında sammit keçirilə bilər

Bax səh. 7

## Məkkə sazişinə üzv dövlətlərin vacib görüşü...



Bax səh. 7

## BMT-nin beş xüsusi məruzəçisi Fransadan izahat tələb edir

Bax səh. 7



# Prezident İlham Əliyev Bişkekdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb

Sentyabrın 1-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin qardaşlıq və strateji müttəfiqliyə əsaslandığı vurğulanaraq, bütün istiqamətlər üzrə əlaqələrin daha da genişlənməsindən məmnunluq ifadə olundu.

Ölkələrimizin "Bir millət, iki dövlət" prinsipinə uyğun olaraq həm xoş, həm də çətin günlərdə daim bir-birinin yanında olduğu xüsusi qeyd edildi.

Görüşdə regional sülhün və sabitliyin daha da möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Dövlət başçıları müttəfiqlik əlaqələrimizin perspektivlərini, regional gündəmi və qarşılıqlı maraq doğuran digər məsələləri də müzakirə etdilər.

# Azərbaycan bundan sonra da beynəlxalq məsələlərdə çoxtərəflilik prinsiplərinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək

## İlham Əliyev "ŞƏT plyus" formatında görüşdə çıxış edib

Sentyabrın 1-də Qırğız Respublikasının paytaxtı Bişkek şəhərində "ŞƏT plyus" formatında görüş keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak etmək üçün Bişkekdəki "Irıs Ordo" Konqres Mərkəzinə gəldi.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını salamladı.

Sonra "ŞƏT plyus" formatında keçirilən görüşün iştirakçıları birgə foto çəkdirdilər.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

-Hörmətli Sadır Nurqojoyeviç.
Hörmətli dövlət başçıları.
Xanımlar və cənablar.

Əvvəlcə Qırğız Respublikasının Prezidentinə dəvətə və qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

Qardaş Qırğızıstana yenidən səfər etməkdən məmnunam. Bir ay öncə dövlət səfərim zamanı müttəfiqlik münasibətləri haqqında Müqavilə imzalandı. Həmin tarixi sənəd Azərbaycanla Qırğızıstan arasında münasibətləri ən yüksək səviyyəyə qaldırdı.

Mən fürsətdən istifadə edərək ölkənin sosial-iqtisadi inkişafında əldə edilmiş uğurlar, onun beynəlxalq aləmdə nüfuzunun gücləndirilməsi münasibətilə Prezidenti və Qırğızıstan xalqını təbrik etmək istərdim. Qırğızıstanın 2027-2028-ci illər üçün BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi beynəlxalq ictimaiyyətin Qırğızıstanın siyasətinə verdiyi dəstəyi nümayiş etdirir.

Bir ildən bir az çox müddət əvvəl Azərbaycan və Ermənistan sülh sazişinin mətnini paraflayaraq 30 illik münaqişəyə son qoydular. Beləliklə, çoxillik münaqişə zonası olmuş Cənubi Qafqaz bölgəsi sülh zonasına çevrilməkdədir.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi 30 ildən sonra, üç il əvvəl icra edildi. Azərbaycan artıq Ermənistana neft məhsulları tədarük edir və üçüncü ölkələrin yüklərinin tranzitini təmin edir. Ermənistanla birlikdə qarşılıqlı ticarətin həcminin artırılması, onun nomenklaturasının genişləndirilməsi və yeni yerüstü nəqliyyat kommunikasiyalarının yaradılması üzərində çalışırıq. Lakin təəssüf ki, BMT bu qətnamələrin icrasında heç bir rol oynamayıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tamamilə özü bərpa edib. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrası üçün müvafiq mexanizmlərin hazırlanması tələb olunur. Bu həyata keçirilərsə, BMT-nin nüfuzunun və təşkilatın münaqişələrin nizamlanmasındakı rolunun artmasına xidmət edər. Son vaxtlara qədər dörd il ərzində Qoşulmama Hərəkatına rəhbərlik etmiş Azərbaycan bundan sonra da beynəlxalq məsələlərdə çoxtərəflilik prinsiplərinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək.

Diqqətinizə görə minnətdaram.

Qırğızıstan Prezidenti Sadır Japarov: Hörmətli İlham Heydər oğlu, bu qədər əhatəli çıxışınıza görə Sizə çox təşəkkür edirəm. Məhz belə geniş dialoq ədalətli, çoxqütblü dünyanın formalaşdırılması üçün zəruridir.















# Birinci xanım Mehriban Əliyeva Bişkekdə dekorativ-tətbiqi sənət ustalarının əl işlərindən ibarət sərgi ilə tanış olub



Sentyabrın 1-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva Qırğız Respublikasının birinci xanımı Ayqul Japarova, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan, Özbəkistan Respublikasının birinci xanımı Ziroat Mirziyoyeva və Çin Xalq Respublikasının birinci xanımı Pen Liyuan ilə birlikdə Bişkekdə "Ala-Arça" Dövlət iqamətgahında olub.

AZƏRTAC xəbər verir ki, Qırğız Respublikasının birinci xanımı Ayqul Japarova Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanı və digər birinci xanımları qarşıladı.

"Ala-Arça" Dövlət iqamətgahında təşkil edilən mədəni proqram çərçivəsində birinci xanımlar Qırğızıstanın xalq dekorativ-tətbiqi sənət ustalarının əl işlərindən ibarət sərgi ilə tanış oldular.

Ekspozisiya fəxri qonaqları qırğız xalqının zəngin mədəni irsi, özünəməxsus ənənələri, əsrlər boyu formalaşmış sənətkarlığı və milli koloriti ilə tanış edir.

Sərgidə, həmçinin keçədən hazırlanmış məmulatlar, ənənəvi məişət əşyaları, xalq sənətkarlarının əsərləri və qırğız dekorativ-tətbiqi sənətinin müxtəlifliyini əks etdirən digər əl işləri təqdim olunur.



Qonaqlar üçün konsert proqramı hazırlanıb. Yaradıcılıq kollektivləri və ifaçılar milli mədəniyyətin gözəlliyini, ənənələrin zənginliyini, qırğız xalqının qonaqpərvərliyini əks etdirən musiqi və rəqs nömrələri təqdim ediblər.

# Bişkek görüşü...

## Dünya mediası Prezident İlham Əliyevlə Nikol Paşinyanın görüşünü geniş işıqlandırıb

Azərbaycan Prezidenti İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Bişkekdə keçirilən Sammiti çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü dünyanın bir sıra ölkələrinin kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olub. Yayımlanan xəbərlərdə bu görüş Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması və davamlı sülhün möhkəmləndirilməsi baxımından mühüm addım kimi qiymətləndirilib, tərəflər arasında birbaşa siyasi dialoqun və praktiki əməkdaşlığın davam etdirilməsi, xüsusilə nəqliyyat, ticarət və regional bağlantılılığın inkişafı önə çəkilib.

Türkiyənin Anadolu agentliyinin məlumatında bu görüş Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinin praktiki mərhələyə keçməsinin göstəricisi kimi dəyərləndirilib. Görüşdə liderlərin birbaşa siyasi dialoqun davam etdirilməsi ilə yanaşı, enerji, ticarət, tranzit və sərhədlərin delimitasiyası üzrə konkret əməkdaşlıq istiqamətlərini müzakirə etdikləri vurğulanıb. Bu baxımdan, xüsusilə TRIPP marşrutunun icrası, qarşılıqlı yük və enerji axınlarının genişləndirilməsinin regional bağlantılılığın və iqtisadi inteqrasiyanın normallaşma prosesinin əsas dayaqlarından birinə çevrildiyi qeyd olunub.

Qardaş ölkədə yayımlanan “Türkiye Gazetesi”, “Son Dakika”, “TRT Avaz”, “Hürriyet”, “Saray Medya”, “Yeni Şafak”, “Ensonhaber”, “Yeni Akit”, “Takvim”, “Bengü Türk”, “İlke” xəbər agentliyi, “CGTN Türk”, “New Turk Post” və TRT-nin ərəbdilli versiyası da bu görüş barədə oxucularına əhatəli məlumatlar çatdırıb.

Rusiyanın TASS agentliyi, “Kommersant”, “Komsomolskaya Pravda”, “Nezavisimaya Gazeta”, “Interfax”, “Vesti.ru”, “Izvestiya”, “RIA Novosti”, “Topwar.ru”, “News.ru”, “Vesti Kavkaza”, “Lenta News” nəşrlərinin Azərbaycanın və Ermənistanın liderlərinin görüşünə dair materiallarında əsas diqqət Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması, sülh prosesinin möhkəmləndirilməsi və tərəflər arasında birbaşa dialoqun davam etdirilməsinə yönəldilib. Xəbərlərdə, xüsusilə TRIPP marşrutunun həyata keçirilməsi, nəqliyyat əlaqələrinin inkişafı və Azərbaycan ilə Ermənistan arasında iqtisadi-ticari münasibətlərin qurulması önə çıxarılıb. Bundan başqa, bəzi nəşrlərin xəbərlərində Azərbaycanın neft məhsullarının Ermənistana ixracı və tranzit məsələlərinə də xüsusi yer verilib.

Gürcüstanın “Newshub Georgia”, “1TV”, “Netgazeti”, “BM.ge”, “Radio Tavisupleba”, “Interpressnews”, “Resonance Daily”, “Info9”, “PrimeTime”, “On.ge”, “Central Asia” və digər media resurslarında Prezident İlham Əliyevin və Baş nazir Nikol Paşinyanın Bişkek görüşünə geniş yer verilib. Materiallarda görüş 2025-ci ilin avqustunda Vaşinqtondakı Sülh Sammitində əldə olunmuş razılaşmaların davamı kimi təqdim edilib, tərəflərin sülh prosesinin möhkəmləndirilməsi, dövlətlərarası münasibətlərin normallaşdırılması və qarşılıqlı etimadın artırılması istiqamətində birbaşa təmasları davam etdirmək barədə razılığa gəldikləri vurğulanıb. Gürcü mediası, xüsusilə Azərbaycandan neft məhsullarının Ermənistana ixracı, Azərbaycan ərazisindən üçüncü ölkələrə və Ermənistana yükdaşımaların genişləndirilməsi, eləcə də TRIPP marşrutunun həyata keçirilməsi ilə bağlı praktiki addımları sülh prosesinin iqtisadi və regional bağlantılılıq komponenti kimi önə çıxarıb. Eyni zamanda, sərhədin delimitasiyası üzrə dövlət komissiyalarının fəaliyyətinin davam etdirilməsi, parlament və vətəndaş cəmiyyəti təmaslarının genişləndirilməsi sülhün institusional və ictimai əsaslarının möhkəmləndirilməsi baxımından qeyd olunub.







Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Bişkekdəki görüşü İran mediasında da geniş işıqlandırılıb. Bu görüş qonşu ölkənin “IRNA”, “Akharin Khabar”, “Khabarpu” və “Vista” media resurslarında iki ölkə münasibətlərinin normallaşdırılması, sülhün möhkəmləndirilməsi və iqtisadi əməkdaşlığın genişləndirilməsi kontekstində təqdim olunub. Materiallarda, xüsusilə tərəflər arasında iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi, nəqliyyat və tranzit imkanlarının genişləndirilməsi, eləcə də Vaşinqtonda əldə olunmuş razılaşmaların praktiki müstəvidə davam etdirilməsi diqqətə çatdırılıb.

Bu görüş Qırğızıstan mediasının da diqqət mərkəzində olub. Qırğızıstanın “Open.kg”, “24.kg”, “CentralAsia.media” və “Economist.kg” media resurslarında bu görüş Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması və sülhün möhkəmləndirilməsi istiqamətində mühüm addım kimi təqdim olunub, tərəflərin birbaşa dialoqu davam etdirmək və əldə olunmuş razılaşmaların icrasına diqqət yetirmək barədə mövqeləri önə çıxarılıb. Xüsusilə TRIPP marşrutunun həyata keçirilməsi və regional nəqliyyat bağlantılarının inkişafı ilə bağlı məsələlər vurğulanıb.

Qazaxıstanın “Ulysmedia” və “Kursiv Media” nəşrləri isə görüşün əsas nəticəsini Azərbaycan və Ermənistan arasında sülhün möhkəmləndirilməsi və münasibətlərin normallaşdırılması ilə əlaqələndirib. Xəbərlərdə tərəflərin birbaşa siyasi dialoqu davam etdirmək niyyəti ilə yanaşı, TRIPP marşrutunun reallaşdırılması və regional iqtisadi-nəqliyyat əlaqələrinin genişləndirilməsi də diqqətə çatdırılıb.

Fransada yayımlanan “La Gazette du Caucase” nəşri görüşü Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması və davamlı sülhün təmin olunması istiqamətində növbəti təmas kimi təqdim edib. Materialda tərəflərin birbaşa dialoqu davam etdirmək və əldə olunmuş razılaşmaların praktiki icrasına yönəlmək niyyəti önə çıxarılıb.

İsveçrənin “Swissinfo.ch” platformasında isə görüş tərəflərin davamlı sülhün bərqərar olması üçün səylərini davam etdirmək barədə razılığı kontekstində işıqlandırılıb. Xəbərdə birbaşa siyasi dialoqun qorunub saxlanılması və davam etdirilməsi, eləcə də Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesinin davam etdirilməsi əsas məqamlar kimi qeyd olunub.

Polşanın “Kresy.pl” nəşri görüşün əsas nəticəsini Azərbaycan və Ermənistan liderlərinin gələcəkdə də birbaşa danışıqları davam etdirmək iradəsini təsdiqləməsi kimi təqdim edib. Materialda bu təmasların iki ölkə arasında sülh prosesinin irəlilədilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Tayvanın “Capital Futures” platformasında yayımlanan xəbərdə əsas diqqət liderlərin Bişkekdə görüşməsi və Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin davam etdirilməsi barədə razılığa gəlmələrinə yönəlib.

Beynəlxalq media və analitik xəbər resurslarında da bu görüş barədə ətraflı söhbət açılıb. “Commonspace.eu” və “IntelliNews” nəşrlərinin materiallarında bu görüş Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin növbəti mərhələsi kimi qiymətləndirilib. Nəşrlər tərəflərin davamlı sülhə nail olmaq, münasibətləri normallaşdırmaq və birbaşa siyasi dialoqu davam etdirmək istiqamətində razılaşmalarını ön plana çıxarıb, sülh prosesinin irəlilədilməsi baxımından görüşün əhəmiyyətini xüsusi vurğulayıb.

**N.BAYRAMLI**

## Qırğızıstan Prezidenti: ŞƏT-in gələcək inkişafının əsasında birlik dayanır



Birlik Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) gələcək inkişafının, davamlı sülhə, inkişafa və ümumi rifaha nail olunmasının əsasını təşkil edir.

AZƏRTAC xəbər verir ki, bunu Qırğızıstan Prezidenti Sadır Japarov Bişkekdə ŞƏT-in Zirvə Görüşündə bildirib.

Dövlət başçısı qeyd edib ki, builki görüş ŞƏT-in 25 illiyinə təsadüf edir və Qırğızıstanın sədrliyi “ŞƏT-in 25 ili: davamlı sülhə, inkişafa və rifaha doğru birlikdə” devizi altında keçirilir.

“Dörddəbir əsr ərzində ŞƏT sərhədlərdə etimadın möhkəmləndirilməsi mexanizmindən dünyanın aparıcı beynəlxalq təşkilatlarından birinə çevrilərək öz səmərəliliyini və zəruriliyini sübut edib”, - deyə Sadır Japarov vurğulayıb.

Onun sözlərinə görə, hazırda ŞƏT-ə üzv dövlətlər dünya əhalisinin 40 faizindən çoxunu, qlobal ÜDM-in isə təxminən dörddəbirini təşkil edir.

S.Japarov bildirib ki, Qırğızıstanın sədrliyi dövründə 200-ə yaxın tədbir keçirilib. Bu müddət ərzində təhlükəsizlik sahəsində əməkdaşlıq möhkəmləndirilib, iqtisadi və nəqliyyat əlaqəliliyi inkişaf etdirilib, mədəni-humanitar əlaqələr dərinləşdirilib, rəqəmsal inkişaf və süni intellekt məsələləri isə təşkilatın praktiki prioritetləri sırasına daxil edilib.

Prezident vurğulayıb ki, ŞƏT-in 25 illiyində üzv dövlətlərin ümumi vəzifəsi yalnız ötən dörddəbir əsrin yekunlarını nəzərdən keçirmək deyil, həm də təşkilatın tarixində davamlı sülh, birgə inkişaf və ümumi rifah səhifəsini açmaqdır.

“Əminəm ki, xalqlarımızın maraqlarına cavab verən razılaşdırılmış qərarlar hazırlaya biləcəyik. Qoy yubiley ili təşkilatımızın inkişafında yeni mərhələnin başlanğıc nöqtəsi olsun”, - deyə Sadır Japarov bildirib.

## Mirziyoyev “ŞƏT plyus” formatını dialoq meydançası kimi inkişaf etdirməyi təklif edib



Özbəkistan Prezidenti Şavkat Mirziyoyev “ŞƏT plyus” formatını regionlararası dialoq meydançası kimi inkişaf etdirməyi təklif edib.

“Report”un Bişkekə ezam olunmuş əməkdaşı xəbər verir ki, bunu Özbəkistan Prezidenti “ŞƏT plyus” formatında keçirilən yüksək səviyyəli görüşdə çıxışı zamanı bildirib.

“Bu platforma dövlətləri, regionları və təşkilatları ümumi gündəlik ətrafında birləşdirmək qabiliyyətinə malikdir. Burada müxtəlif təşəbbüslərin əlaqələndirilməsi və qlobal idarəetmə arxitekturasının formalaşdırılması üzrə dialoq aparmaq mümkündür və lazımdır”, - o bildirib.

Özbəkistan Prezidenti qeyd edib ki, BMT mərkəzi əlaqələndirici rolunu qoruyub saxlamalı, regional strukturlar isə onun səylərini tamamlamalıdır. Onun sözlərinə görə, yeni dünya nizamı regional problemlərin ədalətli həllinə kömək etməlidir.

Mirziyoyev həmçinin bildirib ki, Özbəkistan Avrasiya məkanında açıq və qarşılıqlı faydalı əməkdaşlığın inkişafına sadiqdir.

O, görüş iştirakçılarına dayanıqlı artım, yüksək texnologiyaların tətbiqi, iqlim dəyişmələrinə uyğunlaşma, insan kapitalının inkişafı, əlçatan təhsil və gənclərə dəstək kimi istiqamətlərə diqqət yetirməyi təklif edib.

Bundan başqa, o, BMT çərçivəsində daha geniş təcrübə mübadiləsi aparmağın, yanaşmaları razılaşdırmağın və qərarları birgə təşviq etməyin zəruriliyini qeyd edib.

Özbəkistan Prezidenti əlavə edib ki, “ŞƏT plyus” regional təşkilatların tərəfdaşlıq şəbəkəsinin yaradılması üçün platforma kimi çıxış edə bilər.

## ŞƏT dövlət başçılarının danışıqlarının yekununda 30-dan çox sənəd imzalanıb



Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv dövlətlərin başçılarının danışıqlarının yekununda 30-dan çox sənəd imzalanıb.

AZƏRTAC xəbər verir ki, imzalanan sənədlər sırasında Bişkek Bəyannaməsi, əvvəllər qəbul edilmiş qərarlara dəyişiklik və əlavələrin edilməsi ilə bağlı sənədlər, həmçinin ümumi təhlükəsizlik məsələlərinə dair bəyanatlar yer alır.

Hazırkı sammit Qırğızıstanın 2025-2026-cı illərdə ŞƏT-ə sədrliyi çərçivəsində keçirilir və təşkilatın 25 illiyinə həsr olunub.

Qırğızıstan Şanxay Əməkdaşlıq Təşkilatına “ŞƏT-in 25 ili: davamlı sülhə, inkişafa və rifaha doğru birlikdə” devizi altında sədrlik edir.



# ŞƏT üçün Azərbaycan nümunəsi

## Ölkəmizin ikitərəfli əlaqələri genişləndirməsi strateji önəm daşıyır

Coğrafiyanın genişliyi, əhalinin sayı, Ümumi Daxili Məhsulun (ÜDM) həcmi və bir sıra digər parametrlər baxımından dünyanın ən böyük beynəlxalq təşkilatlarından olan Şanxay Əməkdaşlıq Təşkilatının funksionallığının artmasında qurum daxilində müxtəlif statuslarda yer alan ölkələr arasında ikitərəfli münasibətlər mühüm rol oynayır. Bunu ŞƏT-in yarandığı vaxtdan indiyədək keçdiyi 25 illik yol da təsdiqləyir. Dövlətlər arasında ikitərəfli münasibətlərdə qazanılan yaxşı nəticələr və təcrübə ŞƏT çərçivəsində daha geniş müstəvidə əlaqələrin dərinləşməsinə öz müsbət təsirini göstərir, həmçinin təşkilat daxilində inam mühiti formalaşdırır, müxtəlif məsələlərin asanlıqla uzlaşdırılmasına gətirib çıxarır.

Bu baxımdan qurumda 2015-ci ildən rəsmi qaydada diqloq tərəfdaşı ölkəsi kimi yer alan Azərbaycanın ŞƏT-in digər üzvləri ilə ikitərəfli formatda da geniş əhatə dairəsinə malik münasibətlər qurması bir nümunə kimi dəyərləndirilir. Artıq Azərbaycanla ŞƏT-də təmsil olunan ayrı-ayrı dövlətlərin yerləşdiyi Mərkəzi Asiya regionu vahid siyasi və iqtisadi məkan kimi çıxış edir. Bu, ölkəmizlə Mərkəzi Asiya dövlətləri arasında münasibətlərin və inteqrasiyanın yüksək səviyyəsini təsdiqləyir. Eyni zamanda, bu gün Azərbaycan-Türkiyə, Azərbaycan-Pakistan dostluğu, qardaşlığı zirvələrdədir. Bəhs olunan ölkələrlə münasibətlərimiz ən müxtəlif sahələri, o cümlədən hərbi əməkdaşlığı əhatə edir. Ölkəmiz qonşu İranla siyasi və iqtisadi əlaqələri genişləndirməyə çalışır. İki ölkə arasında bənzərsiz su diplomatiyası həyata keçirilir, Şimal-Cənub Dəhlizi üzrə əməkdaşlıq genişlənir. Bu siyahıya ŞƏT-də təmsil olunan digər dövlətləri də əlavə edə bilərik.

Həmçinin Azərbaycanın ŞƏT-in aparıcı dövləti sayılan Çinlə və 25-ci yubiley sammitinə ev sahibliyi edən Qırğızıstanla dinamik inkişaf temlərinə malik əlaqələri də xüsusi diqqət çəkir. Qısa müstəqillik tarixində ölkəmiz özünün xoş mərama və qarşılıqlı maraqlara əsaslanan ardıcıl siyasəti sayəsində hər iki dövlət ilə əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməyə nail olub.

### Yüksək dinamika ilə inkişaf edən Azərbaycan-Çin əlaqələri

Azərbaycan-Çin əməkdaşlığının artan dimaikası bütün ŞƏT ailəsi üçün nümunə sayıla bilər. 2024-cü ildə ŞƏT-in Astana sammiti zamanı Azərbaycan və Çin liderlərinin görüşündə iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin qurulmasına dair Birgə Bəyannamə qəbul olunub. Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin aprelində Çinə dövlət səfəri, bu səfər çərçivəsində keçirilən yüksəksəviyyəli rəsmi qarşılanma mərasimi, Si Cinpin ilə görüşü və aparılan danışıqların nəticəsində qəbul olunan qərarlar, imzalanan sənədlər, xüsusilə "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" Azərbaycan-Çin münasibətlərində daha bir yeni tarixi səhifə açıb. Azərbaycanla Çin arasında ikitərəfli əlaqələrin Prezident İlham Əliyevin təbirincə desək, əla səviyyədə olması məmnunluq doğurur. İki ölkə arasında siyasi dialoq yüksək dinamikası ilə fərqlənir. İmzalanan sənədlərdən də göründüyü kimi, Azərbaycan Prezidentinin ötən ilin aprel ayında dost ölkəyə dövlət səfəri böyük uğurla keçib. Bu, dövlətimizin başçısının Çinə üçüncü dövlət səfəridir. Eyni zamanda, Prezident İlham Əliyevlə Çin Xalq Respublikasının Sədri Si Cinpinin müxtəlif beynəlxalq platformalarda vaxtaşırı görüşləri də baş tutur. Onlar həm ölkələrimizin gündəlikləri, həm də yaranan yeni qlobal çağırışlar ətrafında aktual müzakirələr aparırlar. Belə müzakirələr hər iki ölkənin mənafeyinə uyğun qərarların verilməsinə əsas olur. Birgə Bəyanat ikitərəfli əlaqələrimizi daha da yüksək pilləyə qaldırıb, dövlətlərarası münasibətlərimizin strateji mahiyyətini gücləndirib. Sənədin mətninə nəzər yetirdikdə, burada ikitərəfli əlaqələrin geniş gündəliyini görmək mümkündür. Ölkələrimiz milli maraqlara aid məsələlərdə həmrəylik və dostluq nümayiş etdirirlər. Hər iki dövlət bir-birinin suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir. "Məmnunluqla qeyd etmək istərdim ki, son dövrdə Azərbaycan-Çin münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. Aramızdakı fəal dialoq, səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşlərimiz, təmaslarımızın intensivliyi Azərbaycan-Çin əlaqələrinin səviyyəsindən və yüksək dinamikasından xəbər verir", - deyə dövlətimizin başçısı vurğulayıb.

İkitərəfli əlaqələrin hazırkı yüksək səviyyəyə çatmasında liderlərin rolunu da xüsusi vurğulamaq lazımdır. Hazırda Azərbaycanın və Çinin liderləri arasında çox mehriban münasibətlər var. Prezident İlham Əliyev görüşlərin birində Sədr Si Cinpinin Onu Çinin yaxın dostu adlandırdığını bir növ mükafat kimi qəbul etdiyini bildirib. Dövlətimizin başçısı Çin lideri ilə görüşməyə, çox səmimi və açıq qaydada söhbət aparmağa hər zaman məmnun olduğunu dəfələrlə diqqətə çatdırıb.

Təbii ki, Şanxay Əməkdaşlıq Təşkilatında əhali sayına və iqtisadiyyatın həcminə görə dünyada ikinci olan Çinin xüsusi çəkisi var. Çin Xalq Respublikası (ÇXR) özünün iqtisadi potensialı ilə ŞƏT çərçivəsində iqtisadi və ticari, humanitar əməkdaşlığın genişlənməsində aparıcı amil olaraq qalır. Belə ki, Çinin Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrlə ticarət dövriyyəsi 2001-ci ildə 12 milyard ABŞ dolları idisə, ötən müddətdə bu rəqəm təxminən 40 dəfə böyüyərək 534 milyard dollara çatıb.

Belə bir nəhəng dövlətin Azərbaycanla münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməsi ilk növbədə hər iki ölkənin siyasətinin mahiyyəti ilə bağlıdır. Rəsmi Pekin ölkələrin iqtisadi gücünün artmasını prioritet sayır və daim əməkdaşlıq təşəbbüsləri irəli sürür. Çin rəhbərliyinin bu fundamental yanaşması Azərbaycanın siyasəti ilə sıx şəkildə uzlaşır. Dövlətimizin başçısı 2025-ci ilin sentyabrında "ŞƏT Plyus" formatında keçirilən görüşdə deyib: "Azərbaycan beynəlxalq sülhün, təhlükəsizliyin və inkişafın təşviqi məqsədilə Çin tərəfindən irəli sürülmüş Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləmişdir. Biz, həmçinin Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş Qlobal İdarəetmə Təşəbbüsünü dövlətlərin suveren bərabərliyi, BMT Nizamnaməsi və beynəlxalq hüquqa hörmət əsasında beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş mühüm və vaxtında atılmış bir addım kimi alqışlayırıq".

Azərbaycanla Çin arasındakı siyasi dialoqun yüksək dinamikasına adekvat olaraq iqtisadi əlaqələr də davamlı olaraq genişlənir. Çin Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində 7,9 faiz paya malikdir. İdxalda isə Çin 17,69 faizlə lider mövqedədir. Hazırda Azərbaycanda Çin kapitalı ilə yaradılmış 375 şirkət mövcuddur, onlardan 298-i aktiv fəaliyyət göstərir.

Yaşıl gündəlik Azərbaycanla Çin arasında iqtisadi əməkdaşlığın ən perspektivli istiqamətlərindən biridir. Azərbaycan özünün zəngin potensialına istinad etməklə enerji transformasiyasına böyük önəm verir. Eyni zamanda, Çin yaşıl enerji texnologiyalarının istehsalında dünya üzrə lider dövlətlərdən biridir. Beləliklə, ölkələrimizin qarşısında yeni əməkdaşlıq perspektivləri açılıb. Bu vaxtadək Çin şirkətləri Azərbaycanın yaşıl enerji sektoruna sərmayələr yönəldən podratçı qismində çalışırdılar. Hazırda isə paytaxt Bakının küçələrində Çindən alınan elektriklə işləyən 160 avtobus və çoxlu sayda minik avtomobilləri şütüyür. Həmçinin əlavə 200 avtobusun alınması üçün podrat müqaviləsi bağlanıb. Bundan başqa, Azərbaycanda ildə 500 avtobus istehsal etmək gücündə olan BYD-nin birgə müəssisəsinin yaradılması nəzərdə tutulub.

Azərbaycanla Çin arasında nəqliyyat əlaqələrinin genişlənməsi də məmnunluq doğurur. Azərbaycan Çinin "Bir kəmər-bir yol" təşəbbüsünə ilk dəstək verən ölkələrdən biridir. Eyni zamanda, dost ölkə Azərbaycanın əsas məkan kimi çıxış etdiyi Orta Dəhlizin inkişaf etdirilməsində maraqlıdır. Perspektivdə Azərbaycan və Çin beynəlxalq nəqliyyat dəhlizlərinin və yükdaşıma əməliyyatlarının inkişafı üzrə fəal əməkdaşlıq edəcək. "Azərbaycan Dəmir Yolları" QSC və "Çin Dəmir Yolları" Dövlət Korporasiyası arasında imzalanmış Anlaşma Memorandumu Bakı-Pekin münasibətlərinə yeni dinamika qazandırmaqla yanaşı, Avrasiya boyunca fasiləsiz bağlantı üçün mühüm addım kimi qiymətləndirilir. Öz növbəsində Azərbaycan-Çin münasibətlərinin son illərdə yeni səviyyəyə yüksəlməsi ŞƏT çərçivəsində əməkdaşlığın praktiki məzmununu gücləndirən amillərdəndir.

### Azərbaycan-Qırğızıstan: Möhkəm institusional əsaslara malik güclü əməkdaşlıq

2026-cı ildə ŞƏT-in yaradılmasının 25-ci ildönümünün qeyd olunması təşkilatın inkişafında yeni mərhələyə diqqəti artırıb. Qırğızıstanın sədrliyi dövründə "ŞƏT-in 25 ili: Dayanıqlı sülh, inkişaf və rifah naminə birlikdə" şüarının müəyyənləşdirilməsi, yubiley tədbirlərinin və Zirvə toplantısının Bişkekdə keçirilməsi təşkilatın gələcək gündəliyinin aktuallığını göstərir.

Azərbaycan ŞƏT-in aparıcı dövləti sayılan Çinlə olduğu kimi, qurumun 25 illik yubiley tədbirinə ev sahibliyi edən Qırğızıstanla da yüksəksəviyyəli münasibətlər qurmağa nail olub. Burada yenə də dövlət başçıları arasında qarşılıqlı hörmətə əsaslanan dostluq münasibətləri ikitərəfli əlaqələrə güclü impuls verir. Dövlət başçıları tez-tez Azərbaycanda və yaxud Qırğızıstanda səfərdə olurlar və ikitərəfli gündəliyin aktual məsələləri ətrafında aktual müzakirələr aparırlar. Prezident İlham Əliyev 2026-cı ilin iyul ayında dost ölkədə növbəti dəfə dövlət səfərində olub. Azərbaycan-Qırğızıstan münasibətlərinin bəhs olunan səfər çərçivəsində iyulun 31-də imzalanmış Müttəfiqlik münasibətləri haqqında Müqavilə ilə yeni mərhələyə yüksəlməsi, Dövlətlərarası Şuranın fəaliyyəti, yüksəksəviyyəli qarşılıqlı səfərlər və humanitar layihələr iki ölkə arasında əməkdaşlığın möhkəm institusional əsaslara malik olduğunu göstərir. Qırğızıstanın ŞƏT-ə sədrliyi fonunda ikitərəfli münasibətlərin yüksək səviyyəsi Azərbaycanın təşkilatla əlaqələri üçün əlavə siyasi və iqtisadi imkanlar yaradır. "Ənənəvi dostluq və qardaşlıq telləri ilə bir-birinə bağlı olan Azərbaycan ilə Qırğızıstan arasında münasibətlərin ildən-ilə inkişaf edərək bu gün müttəfiqlik səviyyəsinə çatması və yeni mahiyyət kəsb etməsi məmnunluq doğurur", - deyə Prezident İlham Əliyev bu günlərdə Qırğız Respublikasının müstəqilliyinin 35-ci ildönümü münasibətilə bu ölkənin Prezidenti Sadır Japarova ünvanladığı təbrik məktubunda bildirib.

Prezident İlham Əliyevin dost Qırğızıstana dövlət səfəri çərçivəsində keçirilən Azərbaycan Respublikası və Qırğız Respublikası Dövlətlərarası Şuranın 3-cü iclası siyasi dialoqun daha da möhkəmləndirilməsi ilə yanaşı, iqtisadi əməkdaşlığın genişləndirilməsi, humanitar əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi və Türk dünyasında inteqrasiyanın möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.Azərbaycan və Qırğızıstan iqtisadiyyatlarının bir-birini tamamlayan xüsusiyyətləri qarşılıqlı ticarətin və investisiyaların artırılması üçün əlverişli imkanlar yaradır.

Cari il iyulun 1-nə olan məlumata əsasən, Azərbaycanda kənd təsərrüfatı, sənaye, tikinti, ticarət, nəqliyyat, xidmət sektorlarında Qırğızıstan investisiyalı 97 kommersiya qurumu qeydiyyatdadır, onlardan 39-nun fəaliyyəti aktivdir. İndiyədək Azərbaycandan Qırğızıstana birbaşa investisiya axınlarının həcmi 68,8 milyon dollar təşkil edir. Qırğızıstandan isə Azərbaycana birbaşa investisiya 25,2 milyon dollardır və bu, əsasən qeyri-neft-qaz sektorunun payına düşür. 1997-ci il avqustun 28-də iki ölkə arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında saziş imzalanıb və qüvvədədir.

Bu ilin yanvar-iyun aylarında Azərbaycan və Qırğızıstan arasında ticarət dövriyyəsi təxminən 29 milyon ABŞ dolları olub. Yarım ildə Azərbaycandan Qırğızıstana 25,5 milyon dollarlıq məhsul ixrac olunub, Qırğızıstandan ölkəmizə isə 3,4 milyon dollarlıq məhsul idxal edilib. Keçən il isə iki ölkə arasında ticarət dövriyyəsi 77,1 milyon dollardan çox olub.

Ölkələrimiz arasında iqtisadi əməkdaşlığı dəstəkləmək məqsədilə yaradılmış Azərbaycan-Qırğız İnkişaf Fondu çərçivəsində tərəfdaşlığın inkişafına önəm verilir. Azərbaycan-Qırğız İnkişaf Fondu bu istiqamətdə səmərəli platforma rolunu oynayır. 2022-ci il oktyabrın 11-də Bişkekdə "Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında Saziş" imzalanıb. Fondun mənzil-qərargahı Bişkek şəhərində yerləşir. İndiyədək fondun fəaliyyəti çərçivəsində 11 təşəbbüs təsdiqlənib, təxminən min iş yeri yaradılıb, daha 30-a yaxın layihə isə müzakirə mərhələsindədir. Prioritetlər sırasında energetika, logistika, sənaye və kənd təsərrüfatı məhsullarının emalı, o cümlədən Qırğızıstan regionlarında həyata keçiriləcək layihələr göstərilir. Fondun nizamnamə kapitalının 200 milyon ABŞ dollarınadək artırılması planı iki ölkənin iqtisadi əməkdaşlığının maliyyə təminatının gücləndirilməsinə xidmət edir.

Diqqət çəkən əsas məqamlardan biri də Qırğız tərəfinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma prosesində iştirak etməsidir. Xüsusilə Ağdam rayonunun Xıdırlı kəndində Ayköl Manas adına tam orta məktəbin tikintisi iki ölkə arasında dostluq və həmrəyliyin praktik ifadəsidir. Bu layihə təkcə sosial infrastrukturun inkişafına deyil, həm də qardaş ölkələrin xalqları arasında humanitar bağların daha da möhkəmlənməsinə xidmət edir.

İki dost ölkə arasında münasibətlərin prioritet istiqamətlərindən birini nəqliyyat-logistika sahəsində əməkdaşlıq təşkil edir. İki ölkənin Orta Dəhlizdə ortaq maraqları var. Azərbaycan böyük həcmlərdə investisiyalar yönəltməklə Transxəzər marşrutunun ölkə ərazisindən keçən hissəsində inteqrasiya edilmiş infrastruktur qurmağa nail olub. Eyni zamanda, Qırğızıstanda da müasir nəqliyyat-logistika infrastrukturunun qurulması istiqamətində önəmli layihələr həyata keçirilir. Hazırda inşası davam etdirilən Çin-Qırğızıstan-Özbəkistan dəmiryolu xətti istismara verildikdən sonra tranzit daşımaları sahəsində yeni bir mərhələ başlayacaq. Belə ki, bundan sonra Orta Dəhliz Avrasiyada rəqib tanımayan bir marşruta çevriləcək. Bunun üzərinə Orta Dəhlizin TRIPP marşrutu (Zəngəzur Dəhlizi) ilə şaxələndirilməsi perspektivini də əlavə etsək, regionda, o cümlədən də ŞƏT coğrafiyasında bağlantıların nə qədər cəlbedici olacağı barədə konkret təsəvvür yaranar.

***Mübariz ABDULLAYEV***

# Bişkekdən görünən Azərbaycan

## Bir stəkan su ilə dünyaya diplomatiya dərsi

Bəzən bir neçə saniyəlik söhbətin içində bütöv bir millətin duyğuları, bir dövlətin özünəinamı, bir liderin diplomatik məharəti və tarixdən gələn böyük yaddaş gizlənir. Bişkekdə Azərbaycan Prezidenti İlham Əliyevlə İran Prezidenti Məsud Pezeşkian arasında baş verən qısa dialoq bunun ən diqqətçəkən nümunələrindən biri oldu.

İlk baxışda sadə görünən həmin söhbət əslində Azərbaycanın xarici

**31 avqust, Bişkek!**

siyasətinin müxtəlif istiqamətlərini özündə birləşdirən daha böyük mənzərənin kiçik bir epizodu idi.

Pezeşkiana "Borjomi" süzüləndə İlham Əliyev səmimi şəkildə deyir:

- "Borjomi" də yaxşı sudur. Amma Azərbaycan suyundan da için.

Ardınca "Badamlı"nın, "İstisu"nun adını çəkir və əlavə edir:

- Əla "İstisu" var, özümlə gətirmişəm.

Bir stəkan su ətrafında baş verən bu qısa dialoq, əslində, diplomatiyanın bəzən ən sadə detallarda necə ifadə olunduğunu göstərir...

### Bir stəkan suyun arxasındakı diplomatik mesaj

İlham Əliyevin ilk olaraq "Borjomi"nin yaxşı su olduğunu söyləməsi təsadüfi detal deyil. Qarşı tərəfin məhsulunu kiçiltmədən öz ölkəsinin nemətini təqdim etmək diplomatik mədəniyyətin incə göstəricisidir. Azərbaycanı göstərmək üçün başqasını kölgədə qoymağa ehtiyac yoxdur. Əksinə, əvvəlcə hörmət göstərilir, sonra Azərbaycanın öz məhsulu təqdim olunur.

Beləliklə, həm qarşı tərəfə ehtiram qorunur, həm də milli dəyər önə çıxarılır. "Azərbaycan suyundan da için" cümləsi isə söhbəti təbii şəkildə Azərbaycanın özünə gətirir. Burada artıq söhbət yalnız sudan getmir.





### "İstisu" ilə Kəlbəcərdən Bişkekə

"İstisu" Azərbaycanın tarixində xüsusi yeri olan Kəlbəcərin adını daşıyan mənəvi simvollardan biridir. Kəlbəcər Azərbaycan üçün sadəcə coğrafi məkan deyil. Bu ad illərlə davam edən həsrətin, ağrının, mübarizənin və Qələbənin yaddaşıdır. Bu baxımdan İlham Əliyevin "özümlə gətirmişəm" deməsi xüsusi məna qazanır. Sanki özü ilə yalnız bir şüşə su gətirməyib. Kəlbəcərdən bir parça gətirib. İllərlə həsrəti çəkilən dağlardan, yenidən Azərbaycan bayrağının dalğalandığı torpaqlardan bir nişanə gətirib. Bir vaxtlar işğal altında olan Kəlbəcərin suyunun bu gün beynəlxalq görüşdə İran Prezidentinin qarşısına qoyulması Azərbaycanın keçdiyi yolun səssiz, lakin təsirli nümayişinə çevrilir.

Və bütün bunların izahı üçün uzun nitqə ehtiyac qalmır. Bir cümlə kifayətdir:

"Əla "İstisu" var, özümlə gətirmişəm".

Böyük siyasətin bəzən ən təsirli dili məhz sadə cümlələr olur.

### İki prezident, iki dövlət, bir dil

Bişkekdəki dialoqun başqa bir diqqətçəkən tərəfi isə dil məsələsidir. İlham Əliyev Pezeşkianla Azərbaycan dilində danışır. Qarşısındakı insan isə azərbaycanlı olsa da, eyni zamanda İran İslam Respublikasının Prezidentidir və beynəlxalq görüşdə öz dövlətini təmsil edir. Bu həssas məqamın qorunması xüsusi əhəmiyyət daşıyır. Azərbaycan dilinin doğmalığı hiss olunur, lakin söhbət siyasi nümayişə çevrilmir. Pezeşkianın dövlət başçısı kimi statusu kölgədə qalmır. Əksinə, çox təbii bir mənzərə yaranır:

İki prezident.
İki dövlət.
Bir dil.

Biri müstəqil Azərbaycanın Prezidenti İlham Əliyev.

Digəri İranın Prezidenti, Azərbaycan türkü Məsud Pezeşkian.

Və hər ikisi Azərbaycan dilində danışır.

Bu mənzərə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün təbii olaraq qürur doğuran bir məqamdır. Çünki Azərbaycan dili yalnız Azərbaycan Respublikasının dövlət dili deyil. Bu dil milyonlarla insanın ailəsindən, yaddaşından, nənəsinin-babasının danışığından və milli duyğusundan keçərək bu günə gəlib çatan böyük mənəvi sərvətdir. Bişkekdə isə həmin dil beynəlxalq diplomatiyanın yüksək səviyyəsində səslənir.

### Bişkekdə Azərbaycanın böyük diplomatik mənzərəsi

Lakin Bişkek səfərinin əhəmiyyəti yalnız bir stəkan su ətrafında baş verən dialoqla məhdudlaşmır.

Son iki gündə Bişkekdə baş verənlər Azərbaycanın dəyişən beynəlxalq münasibətlər sistemində tutduğu mövqenin daha geniş mənzərəsini ortaya qoydu. Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının tədbirlərində iştirakı, Ermənistanın Baş naziri Nikol Paşinyan, İran Prezidenti Məsud Pezeşkian, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və digər liderlərlə keçirdiyi görüşlər yalnız diplomatik protokol hadisələri kimi qəbul edilə bilməz. Bu təmasların hər birinin arxasında Azərbaycanın təhlükəsizlik, nəqliyyat, enerji, ticarət və regional sülh maraqları dayanır. Şanxay Əməkdaşlıq Təşkilatı artıq yalnız təhlükəsizlik məsələləri ətrafında formalaşmış regional qurum deyil. Çin, Rusiya, Hindistan, İran, Pakistan və Mərkəzi Asiya dövlətlərini bir araya gətirən bu platforma Avrasiyanın böyük siyasi və iqtisadi məkanında qarşılıqlı əlaqələrin mühüm mexanizmlərindən birinə çevrilib. Azərbaycan ŞƏT-in üzvü deyil. Ölkəmiz təşkilatda dialoq tərəfdaşı statusundan başlayaraq münasibətləri mərhələli şəkildə inkişaf etdirir.

Burada əsas məsələ formal üzvlükdən daha çox Azərbaycanın bu geniş siyasi-iqtisadi məkanda öz imkanlarını necə reallaşdırmasıdır.

### Orta Dəhliz: coğrafiyadan strateji üstünlüyə

Azərbaycanın Bişkekdəki mövqeyinin əsas istiqamətlərindən biri də nəqliyyat və logistika məsələsidir.

Xəzərin qərb sahilində yerləşən Azərbaycan Çin və Mərkəzi Asiyadan Avropaya uzanan Orta Dəhlizin mühüm halqasına çevrilib. Bakı limanı, dəmir yolu infrastrukturu, Xəzər üzərindən daşımalar, Azərbaycan-Gürcüstan-Türkiyə bağlantısı və Avropaya çıxan nəqliyyat şəbəkələri ölkənin geosiyasi əhəmiyyətini real iqtisadi imkanlarla tamamlayır. Mərkəzi Asiya üçün Azərbaycan Avropa bazarlarına çıxış yollarından biridir. Çin üçün isə Avrasiyanın qərb istiqamətində nəqliyyat marşrutlarının şaxələndirilməsi baxımından mühüm tərəfdaşdır. Məhz buna görə ŞƏT platformasında Azərbaycanın iştirakı yalnız diplomatik görünürlük məsələsi deyil. Bu, ölkənin öz coğrafiyasını iqtisadi və siyasi üstünlüyə çevirməsi baxımından yeni imkanlar yaradır. Azərbaycanın qarşısında duran məqsəd yalnız yükün ərazisindən keçdiyi ölkə olmaq deyil. Əsas məsələ marşrutun idarə olunduğu, xidmətlərin göstərildiyi, investisiyaların cəlb edildiyi və əlavə dəyərin yaradıldığı regional logistika mərkəzinə çevrilməkdir.

### Bakı-Astana xətti və Xəzərin yeni rolu

Bu baxımdan Prezident İlham Əliyevin Bişkekdə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə görüşündə Orta Dəhlizin ayrıca müzakirə olunması diqqətəlayiqdir. Azərbaycan və Qazaxıstan arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin inkişafı fonunda nəqliyyat-logistika əməkdaşlığının önə çıxması iki Xəzəryanı dövlətin öz coğrafiyalarını vahid iqtisadi bağlantı sisteminə çevirmək niyyətini göstərir. Beləliklə, Xəzər yalnız iki sahili ayıran coğrafi məkan deyil, həm də Şərqlə Qərb arasında yeni iqtisadi əlaqələrin qurulduğu strateji körpüyə çevrilir.

### Əliyev-Paşinyan görüşü: sülh gündəliyində yeni mərhələ

Bişkekdəki ən diqqətçəkən siyasi hadisələrdən biri, şübhəsiz, İlham Əliyev-Nikol Paşinyan görüşü idi.

Bu görüşü Azərbaycan-Ermənistan münasibətlərinin indiki mərhələsindən kənarda təsəvvür etmək mümkün deyil. Çünki iki ölkə arasında artıq müharibə gündəliyindən sonrakı mərhələ formalaşır.

Sülh artıq yalnız diplomatik sənədlərin dili ilə ölçülmür. Azərbaycan tərəfinin məlumatına görə, Azərbaycanın neft məhsullarının Ermənistana ixracı, üçüncü ölkələrdən taxıl və digər əmtəələrin Azərbaycan ərazisi ilə Ermənistana tranziti, iki ölkə arasında ticarət əlaqələrinin yaranması və biznes dairələri arasında təmasların genişlənməsi sülhün ilk iqtisadi nəticələri kimi qiymətləndirilir.

Bu, Cənubi Qafqaz üçün ciddi dəyişiklikdir. Dünən bağlı olan iqtisadi yolların bu gün qarşılıqlı faydaya xidmət etməyə başlaması münasibətlərin mahiyyətində dönüşün baş verdiyini göstərir.

### Sülh: sənəddən iqtisadi əməkdaşlığa doğru

Sülhün gələcəyi də məhz belə praktik dəyişikliklərdən asılı olacaq. Siyasi sənəd vacibdir. Lakin davamlı sülhü yalnız sənəd qoruya bilməz. Sərhədin müəyyənləşdirilməsi, iqtisadi əlaqələrin qurulması, enerji və yükdaşımaların artması, insanların və bizneslərin qarşılıqlı təmaslarının genişlənməsi sülhü real həyatın bir hissəsinə çevirir. Bişkek görüşündə sərhəd delimitasiyası üzrə komissiyaların fəaliyyətinin davam etdirilməsinin vacibliyinin vurğulanması da bu baxımdan əhəmiyyətlidir.

### Zəngəzur istiqaməti və TRIPP

Zəngəzur istiqamətində kommunikasiyaların açılması isə bu mənzərənin ən strateji elementlərindən biridir. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında bağlantının yaradılması yalnız iki məntəqəni birləşdirən yol layihəsi deyil. Bu bağlantı həyata keçərsə, Azərbaycan-Türkiyə quru əlaqəsi daha da möhkəmlənəcək, Mərkəzi Asiya ilə Anadolu arasında nəqliyyat zənciri qısalacaq və Orta Dəhlizin əlavə imkanları meydana çıxacaq. Vaşinqtonda razılaşdırılmış "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun - TRIPP-in praktiki reallaşdırılması bu baxımdan yalnız Azərbaycan-Ermənistan münasibətlərinin deyil, bütövlükdə regionun iqtisadi gələcəyinin məsələsidir. Siyasi razılaşmanın ən böyük sınağı onun real infrastruktura çevrilməsidir. Yollar çəkilməli, gömrük və sərhəd mexanizmləri müəyyənləşdirilməli, hüquqi prosedurlar razılaşdırılmalı, təhlükəsizlik məsələləri həll edilməlidir.

Sülhün iqtisadi dividendə çevrilməsi də məhz bundan sonra sürət qazana bilər.

### Bakı-Ankara müttəfiqliyi və Türk dünyası

Bişkek səfərinin başqa bir mühüm tərəfi Azərbaycan-Türkiyə münasibətlərinin və Türk dünyası ilə əlaqələrin ümumi mənzərədə görünməsidir. Prezident İlham Əliyevin Rəcəb Tayyib Ərdoğanla görüşü iki müttəfiq ölkə arasında yüksək səviyyəli siyasi koordinasiyanın davam etdiyini göstərdi. Mərkəzi Asiyanın qəlbində keçirilən belə görüşlər Azərbaycan-Türkiyə tandeminin yalnız Cənubi Qafqaz üçün deyil, daha geniş türk coğrafiyası üçün də strateji əhəmiyyətini nümayiş etdirir. Qırğızıstanda Dünya Köçəri Oyunlarının açılışında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı da səfərin yalnız siyasi deyil, humanitar və mədəni ölçüsünün olduğunu göstərdi.

### Bir səfərdə bir neçə diplomatik masa

Bişkekdə Azərbaycan Prezidentinin qarşısında açılan mənzərənin bütövlüyü məhz burada görünür. Eyni səfər çərçivəsində Çin və Mərkəzi Asiyanın təmsil olunduğu ŞƏT platforması, Türkiyə ilə müttəfiqlik, İranla qonşuluq və əməkdaşlıq, Qazaxıstanla strateji tərəfdaşlıq, Ermənistanla sülh gündəliyi bir-birindən ayrı hadisələr deyil. Bunların hamısı Azərbaycanın eyni xarici siyasət xəttinin müxtəlif istiqamətləridir. Bu xəttin mahiyyəti hansısa bir güc mərkəzinin yanında dayanmaq deyil.

Əsas məqsəd müxtəlif siyasi və iqtisadi mərkəzlərlə münasibətlərdən Azərbaycanın milli maraqları üçün istifadə etməkdir. Azərbaycan Avropa ilə enerji əməkdaşlığını davam etdirə, Türkiyə ilə müttəfiqliyini dərinləşdirə, Çinlə strateji tərəfdaşlığını genişləndirə, Mərkəzi Asiya ilə əlaqələrini gücləndirə və eyni zamanda ŞƏT kimi platformalarda fəal iştirak edə bilir. Bu, ziddiyyət deyil.

Əksinə, müasir diplomatiyanın tələb etdiyi çoxistiqamətli manevr imkanının ifadəsidir. Azərbaycanın ŞƏT-də iştirakının əsas qazancı da burada axtarılmalıdır. Bakı üçün təşkilatın əhəmiyyəti hansısa siyasi blokun tərkibinə daxil olmaqdan daha çox, böyük Avrasiya dövlətləri ilə birbaşa siyasi dialoqun genişlənməsində, nəqliyyat və ticarət əlaqələrinin dərinləşməsində, enerji və rəqəmsal əməkdaşlıq imkanlarının artırılmasında və ölkənin beynəlxalq mövqelərinin şaxələndirilməsindədir. Azərbaycan nə Şərqi Qərbə qarşı qoyur, nə də Qərbi Şərqə alternativ kimi təqdim edir. Yanaşma daha praqmatikdir: müxtəlif istiqamətlər arasında əlaqə yaratmaq, bu əlaqələrin mərkəzində ölkənin milli maraqlarını saxlamaq və coğrafi mövqeyi iqtisadi və siyasi üstünlüyə çevirmək.

### Sülh, yol, ticarət və geosiyasi əhəmiyyət

Azərbaycan artıq yalnız öz ərazisindən keçən layihələrə ev sahibliyi edən ölkə deyil. Ölkə həmin layihələrin siyasi və iqtisadi məntiqinin formalaşmasında iştirak edən tərəfə çevrilir. Orta Dəhliz, Bakı limanı, dəmir yolları, enerji infrastrukturu, Şimal-Cənub bağlantısı və gələcək regional kommunikasiyalar Azərbaycanın coğrafiyasını diplomatik kapitala çevirir. Bişkekdə bunun daha bir mühüm nümunəsi ortaya çıxdı: Azərbaycan ŞƏT platformasında regional və qlobal məsələləri müzakirə edərkən, eyni şəhərdə Ermənistanla ikitərəfli sülh gündəliyini də irəli aparırdı. Cənubi Qafqazda sülh və sabitlik təmin olunarsa, Azərbaycan öz nəqliyyat imkanlarını daha geniş Avrasiya marşrutlarına bağlaya bilər. Avrasiya bağlantıları gücləndikcə Azərbaycanın regional əhəmiyyəti artır. Regional əhəmiyyət artdıqca isə ölkənin diplomatik manevr imkanları genişlənir.

### Bişkekdən Bakıya: Azərbaycanın yeni konturu

Məhz buna görə Bişkek səfərini yalnız ŞƏT sammitində iştirak kimi təqdim etmək bu səfərin siyasi çəkisini tam ifadə etməz. Burada Azərbaycan bir neçə müxtəlif diplomatik masada eyni vaxtda öz gündəliyini irəli sürdü. Bir masada Avrasiyanın gələcək siyasi-iqtisadi arxitekturası müzakirə olunur.

Başqa masada Azərbaycan-Ermənistan sülhünün praktiki məsələləri. Digər görüşlərdə nəqliyyat, enerji, ticarət və ikitərəfli münasibətlər. Bu mənzərədə Azərbaycanın əsas üstünlüyü özünə məxsus siyasi xəttinin olmasıdır. Bişkek səfərinin ən mühüm mesajı da budur: Azərbaycan artıq yalnız özünü dünyaya tanıdan ölkə deyil. O, öz coğrafiyasının yaratdığı imkanları siyasi iradə, iqtisadi layihələr və fəal diplomatiya ilə birləşdirərək Avrasiyanın mürəkkəb münasibətlər sistemində özünə mühüm yer qazanan dövlətdir. Bir neçə il əvvəl Cənubi Qafqazda əsas sual müharibənin necə bitəcəyi idisə, bu gün əsas suallardan biri bölgənin sülhdən sonra necə dəyişəcəyi, hansı yolların açılacağı, hansı ticarət marşrutlarının yaranacağı və Cənubi Qafqazın Avrasiyanın böyük iqtisadi məkanına necə inteqrasiya olunacağıdır. Azərbaycan bu sualların cavabında artıq kənarda dayanan müşahidəçi deyil. Bişkek bunu bir daha göstərdi ki, ŞƏT masasında Azərbaycan var.

Türk dünyasının siyasi-mədəni məkanında Azərbaycan var.

Avrasiya nəqliyyat xəritəsində Azərbaycan var.

Cənubi Qafqazın sülh gündəliyində Azərbaycan var.

Və bütün bu istiqamətləri birləşdirən əsas amil ölkənin öz milli maraqlarına söykənən, çevik və nəticəyönümlü diplomatiyasıdır. Bişkekdən Bakıya qayıdan əsas siyasi mesaj da elə budur:

Dünya dəyişir, güc mərkəzləri yenidən düzülür, yeni yollar və yeni tərəfdaşlıq formatları meydana çıxır. Azərbaycan isə bu dəyişikliklərin kənarında dayanmaq əvəzinə, onların yaratdığı imkanları öz dövlət maraqları naminə dəyərləndirən fəal aktor kimi çıxış edir. Bu, bir səfərin nəticəsindən daha böyük mənzərədir. Bu, Azərbaycanın dəyişən dünyadakı yerinin yeni konturudur.



*Elnarə Akimova,*
*Milli Məclisin deputatı,*
*YAP İdarə Heyətinin üzvü,*
*Filologiya elmləri doktoru*

# Türkiyə-Azərbaycan "yaşıl enerji" əməkdaşlığı genişlənir

Azərbaycan və Türkiyə Naxçıvanda bərpaolunan enerji infrastrukturlarının yaradılması istiqamətində işləri intensivləşdirib. Naxçıvanda inşa edilən Günəş elektrik stansiyalarında istifadə olunan fotovoltaik panellərin Türkiyədən tədarükü artıb ki, bu da stansiyanın inşasını vaxtında başa çatdırmağa imkan verir. Bu günlərdə Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi ilə Türkiyə Xarici İqtisadi Əlaqələr Komitəsinin (DEİK) Türkiyə-Azərbaycan İş Şurasının üzvləri ilə keçirilən görüş də bu bölgədə "yaşıl enerji" sektorunda nəzərdə tutulan planlar müzakirə olunub. Azərbaycanda Türkiyə şirkətləri ilə birgə müəssisələrin yaradılması imkanları, habelə texnologiya transferi və yerli istehsalın təşkili ilə bağlı təkliflər müsbət qarşılanıb.

## Naxçıvan regional dəhlizə çevrilir

Türkiyə və Azərbaycan enerji infrastrukturlarının inteqrasiyasını başa çatdırmaq və enerji ixracını, xüsusilə Naxçıvan vasitəsilə həyata keçirmək üzərində işləyirlər. "Yaşıl enerji" zonası elan edilmiş Naxçıvanın yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti burada ekoloji cəhətdən təmiz enerji istehsalına geniş imkanlar yaradır. Proqnozlara görə, Muxtar Respublikanın ərazisində günəşli saatların orta illik miqdarı 2600-2800 saat, hər kvadratmetrə düşən Günəş enerjisinin intensivliyi isə 0,8-1,2 kilovat-saat təşkil edir. Bu isə o deməkdir ki, bütün fəsillərdə Günəş enerjisindən istifadə imkanı mövcuddur. Bölgədə yaradılan yeni enerji infrastrukturları sayəsində Naxçıvanda təmiz enerji istehsalının payı sürətlə artmaqdadır. Yeni Günəş və külək elektrik stansiyalarının tikilib istifadəyə verilməsi istehsal edilən ümumi enerjidə bərpaolunan enerjinin payını kəskin yüksəldib. Ümumilikdə alternativ və bərpaolunan enerji mənbələrində istehsal edilən elektrik enerjisi ümumi enerji istehsalında təxminən 37 faizə bərabərdir.

Mövcud potensiallar Muxtar Respublikanın zəngin alternativ enerji mənbəyinə malik olduğunu təsdiqləyir və bunun nəticəsidir ki, son bir ildə xarici şirkətlərlə əməkdaşlıq sazişləri imzalanıb. "Masdar" şirkəti ilə ilkin mərhələdə gücü 150 meqavat olan Günəş Elektrik Stansiyasının tikilməsi də nəzərdə tutulub. "Czech Engineering" şirkəti isə Sədərək rayonunun Türkiyə ilə sərhədində günəş elektrik stansiyalarının inşası, enerji ötürücülərinin tikilməsi və istifadəsi üzrə əməkdaşlıqda maraqlıdır. Eyni zamanda, Almaniyanın "Notus" şirkəti Naxçıvanda "yaşıl enerji" layihələrini reallaşdırmaq niyyətindədir. Gücü 300 meqavat olan yeni nəhəng Günəş Elektrik Stansiyasının Türkiyə ilə sərhəd xəttinə yaxın ərazidə tikilməsi işləri də sürətləndirilib.

Ötən ay Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri zamanı layihə işlərinin gedişi ilə tanış olduğu "Şəms 1" və "Qərbi Üfüq" Günəş elektrik stansiyalarının tikintisi də irəliləyir və bu stansiyalar gələcəkdə elektrik enerjisinin ixracına imkanlarını genişləndirəcək. Ümumilikdə, Naxçıvanda Günəş elektrik stansiyalarının tikintisi üçün 688 hektar ərazi ayrılıb. Layihələrin reallaşdırılması nəticəsində muxtar respublikada bərpaolunan enerji üzrə qoyuluş gücü bir neçə yüz meqavata çatacaq. Yaxın gələcəkdə Zəngəzur dəhlizinin açılması perspektivində bu layihələr Naxçıvanın enerji təminatında yeni mərhələnin əsasını qoymaqla yanaşı, muxtar respublikanın enerji istehsalçısı kimi mövqeyini də gücləndirəcək.

Göründüyü kimi, Naxçıvanın "yaşıl enerji" potensialına, xüsusilə bu enerjinin Türkiyə istiqamətində ixracına böyük maraq var. Bu, Naxçıvanın "yaşıl enerji" dəhlizinə çevrilməsi yolunda imkanlarını daha da gücləndirməkdədir. Bu strateji planlar isə ilk növbədə Türkiyə ilə birlikdə icra olunur.



## Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan kabeli

Qeyd edək ki, bir müddət əvvəl İstanbulda Azərbaycan ilə Türkiyə arasında "Azərbaycan (Naxçıvan)-Türkiyə Enerji İnterkonnektoru" və "Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan Yaşıl Enerji Dəhlizi" layihələrinin həyata keçirilməsi ilə bağlı geniş məsləhətləşmələr də keçirilib. Türkiyə Elmi və Texnoloji Araşdırmalar Şurası (TÜBİTAK) tərəfindən aparılan araşdırmaların nəticələri olduqca ürəkaçan dəyərləndirilib. Naxçıvandan Türkiyəyə ilkin mərhələdə 1 QVt həcmində elektrik enerjisi ötürülməsinin perspektivli olduğu bildirilib. Layihənin gələcəkdə yalnız Azərbaycandakı mənbələrdən deyil, Mərkəzi Asiyadan da Türkiyəyə elektrik enerjisinin nəqlinə imkan yaradacağı qeyd edilib. Azərbaycan və Türkiyədən olan investorların layihədə iştirakı perspektivləri dəyərləndirilib.

Hazırda diqqətçəkən digər strateji hədəf "Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında yaşıl elektrik enerjisinin ötürülməsi və ticarəti layihəsi"nin sürətləndirilməsidir. Ötən ay Türkiyədə keçirilən tədbirdə layihə üzrə müqavilə-hüquq bazasının möhkəmləndirilməsi, texniki-iqtisadi əsaslandırma, Birgə Müəssisənin yaradılması və digər məsələlər razılaşdırılıb ki, bu da enerji marşrutunun yeni fazaya daxil olması kimi səciyyələndirilə bilər. Xatırladaq ki, "Azərbaycan Respublikasının Energetika Nazirliyi, Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi, Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi və Bolqarıstan Respublikasının Energetika Nazirliyi arasında yaşıl elektrik enerjisinin ötürülməsi və ticarəti sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" 4 aprel 2025-ci il tarixində Bakıda imzalanıb. Həmin sənəddən irəli gələrək hazırda Naxçıvan-Türkiyə-Avropa marşrutunun "Cəbrayıl" və Şərqi-Zəngəzur enerji qovşağı ilə əlaqələndirilməsi nəzərdə tutulur. Cəbrayılda inşa olunmuş 330 kilovoltluq yarımstansiya və elektrik verilişi xətlərinin eynilə Naxçıvanda tikilməsi, bu enerji sistemlərinin inteqrasiyası, Türkiyə ilə sərhəddə çevirici yarımstansiyanın tikintisi qarşıda duran məsələlərdir. Həmin istiqamət azad ərazilərdəki bərpaolunan enerjinin adıçəkilən regional xəttə inteqrasiyasını təmin etməklə enerjinin Ermənistan və yaxud İran üzərindən Naxçıvana, oradan Türkiyə və Avropaya ötürülməsini hədəfləyir. Belə olan halda artıq Ermənistan da "yaşıl dəhliz"ə cəlb edilmiş olur və Azərbaycanın enerji humanizmi nəticəsində Avropa ailəsinə qoşulur.

## Avropa Komissiyasının dəstəklədiyi layihə

Qeyd edək ki, "Şərq-Qərb Yaşıl Enerji Dəhlizi"nin tərkib hissəsi olan "Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan" kabeli Avropanın bərpaolunan enerjiyə artan tələbatı fonunda daha ön plana çıxmaqdadır. Həmin ssenari üzrə bir neçə ay əvvəl "Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti" təsis edilib və "yaşıl enerji" sahəsində vacib əməkdaşlığın digər ölkələrlə birgə inkişaf etdirilməsi qərara alınıb. Bura Qazaxıstan, Özbəkistan və Macarıstan daxildir. Bu təşəbbüsləri dəstəkləyən Avropa İttifaqının Enerji Komissarlığı təmiz enerjiyə keçidin ən etibarlı qollarından biri olan "yaşıl enerji"yə böyük önəm verdiyini bəyan edib. Bir neçə ay əvvəl Azərbaycanda səfərdə olan Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin layihəyə dəstəyini ifadə etməsi bu təşəbbüsün Avropanın enerji təhlükəsizliyi və "yaşıl enerji" keçidi baxımından strateji əhəmiyyətinin yüksək siyasi səviyyədə qəbul edildiyini bir daha təsdiqləyir. Avropa İttifaqının enerji və mənzil məsələləri üzrə komissarı Dan Yorgensenə ünvanlanmış "Yaşıl Enerji Dəhlizi" layihəsinin Avropa İttifaqının Qarşılıqlı Maraq Kəsb edən Layihələr və Ümumi Maraq Kəsb edən Layihələr üzrə 3-cü siyahısına daxil edilməsi məqsədilə layihənin həyata keçirilməsinə dəstək və sadiqlik haqqında Birgə Məktub"un imzalanması isə ən mühüm iqtisadi hadisə kimi dəyərləndirilə bilər.

Beləliklə, Azərbaycan və Türkiyə arasında həyata keçirilməkdə olan "yaşıl enerji" dəhlizi qurucuLuğu iki qardaş ölkə arasında əməkdaşlığın yeni mərhələsi olmaqla, Naxçıvanı regional oyunçuya çevirəcək, Avropa qitəsinin enerji təchizatında geoiqtisadi mövqeyini təyin edəcək.

*E.CƏFƏRLİ*

# Avropada qazın qiyməti artır...

## Qitə ölkələri yanacaq mənbələrinin artırılmasına çalışır

Yaxın Şərqdəki son proseslər fonunda Avropada təbii qazın qiyməti 2023-cü ilin əvvəlindən bəri ən yüksək səviyyəyə qalxıb. Niderlandın TTF habında qazın oktyabr üzrə fyuçersləri meqavat-saat üçün 4,4 faiz artaraq 69,9 avro olub. Bu, 2023-cü ilin yanvar ayından bəri ən yüksək səviyyədir. "Gas Infrastructure Europe"nın (GIE) məlumatlarına görə, Avropada təbii qaz anbarlarının doluluq nisbəti hazırda 64,7 faizdir. Bu göstərici tarixi orta səviyyədən də aşağıdır.

Ekspertlərin fikrincə, Avropada "mavi yanacağın" qiyməti Yaxın Şərqdə yenidən başlayan döyüşlərin Körfəzdən mayeləşdirilmiş təbii qaz (LNG) ixracında daha çox pozuntulara səbəb ola biləcəyi ilə bağlı narahatlıqlar fonunda yüksəlir. "Köhnə qitədə" ilin bu vaxtı üçün anbarların doluluq nisbətinin tarixi orta səviyyədən aşağı olması isə qışdan əvvəl ehtiyatların artırılması ilə bağlı narahatlıqlar yaradır. Lakin sentyabrın əvvəli üçün qitədə proqnozlaşdırılan daha mülayim hava temperaturu tələbatla bağlı gözləntiləri məhdudlaşdırsa da, anbarların doluluq nisbətinin aşağı qalması, Körfəzdən LNG tədarükü ilə bağlı qeyri-müəyyənliklər və Hörmüz boğazı üçün risklər qazın qiymətinə yuxarı istiqamətli təzyiq göstərir.

Analitiklər hesab edirlər ki, Avropanın tarixən aşağı təbii qaz saxlama səviyyələri 2026/2027-ci illərin qış fəslində təchizat təhlükəsizliyini riskə atır.

## Azərbaycanın Pan-Avropa qaz təchizatçısı kimi mövqeyi güclənir

Baş verənlər fonunda Avropanın qaz bazarında Azərbaycana olan tələbat da artır. Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) 2026-cı ildən Avstriya və Almaniyaya da qaz tədarükünə başlayıb. "Cənub Qaz Dəhlizi"nin Avropa seqmenti olan Transadriatik Boru Kəməri (TAP) vasitəsilə nəql edilən qaz yanvarın ortalarından etibarən İtaliya üzərindən Avstriya və Almaniyaya çatdırılıb. Bununla da Azərbaycan qazının Avropadakı coğrafiyasını daha da genişləndirib və alıcı ölkələrin sayını 16-ya çatdırıb. Hazırda TAP kəməri ilə 12 Avropa ölkəsinə birbaşa qaz ixrac olunur. Ümumilikdə, TAP kəməri istifadəyə veriləndən Avropa ölkələrinə 60 milyard kubmetrdən çox "mavi yanacaq" ixrac olunub.

Ötən illərdə müxtəlif regionlardakı qaz infrastrukturlarında yaranan fasilələr və innektorlardakı dayanmalara baxmayaraq, Azərbaycan qaz nəql etdiyi ölkələrin heç birinin təchizatında ara verməyib. Bu, ölkəmizin bir daha etibarlı və məsuliyyətli tərəfdaş olduğunu təsdiqləyir. Azərbaycanın bu həssas davranışı Avropa ölkələri tərəfindən təqdir edilib.

Azərbaycanın Avropanın qaza olan tələbatının ödənilməsi üçün imkanları isə olduqca genişdir. Ölkəmizin təsdiq olunmuş təbii qaz ehtiyatları, təxminən, 2,5 trilyon kubmetrdən 2,6 trilyon kubmetrədək qiymətləndirilir. Həmin ehtiyatların əsas hissəsi "Şahdəniz", "Abşeron", "Babək" və "Ümid" kimi iri yataqların payına düşür. Son illər hasilatı artırmaqla Avropa bazarlarına daha çox qaz çıxarılmasına nail olmaq məqsədilə ölkəmizdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

Avropada qaza olan ehtiyacların artması reallığı nəzərə alınaraq TAP-ın səhmdarları kəmərin genişləndirilməsi işlərinə də başlayıb. Azərbaycan təbii qazını Avropaya nəql edən TAP boru kəmərinin genişləndirilməsi üzrə bazar araşdırması başlayıb. Boru kəmərinin operatoru "TAP AG" şirkəti bəyan edib ki, TAP hazırda 3 genişləndirmə ssenarisi təklif edir: məhdud genişləndirmə (təqribən ildə 14,4 milyard kubmetr), qismən genişləndirmə (illik 17,1 milyard kubmetr) və tam genişləndirmə (ildə təxminən 20 milyard kubmetr). Nəticədə Azərbaycanın Aİ-yə qaz tədarükləri üçün yeni imkanlar açılacaq.



## TransXəzər qaz kəməri aktuallaşır

Beynəlxalq Enerji Agentliyinin analitikləri hesab edirlər ki, Avropada qaz böhranı Xəzərin digər resurs nöqtələrini - Türkmənistan yanacaq mənbələrini də səfərbər etməyə ehtiyacları artırır. Bu baxımdan TransXəzər qaz kəmərinin çəkilişi aktual olaraq ön plana çıxır. Türkmənistan qazı bu kəmərlə Azərbaycana və Türkiyəyə, oradan isə Avropaya nəql oluna bilər. Xatırladaq ki, 3 il əvvəl Azərbaycan, Türkiyə və Türkmənistan prezidentləri Türkmənbaşı şəhərində üçtərəfli görüşdə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin yaradılması ilə yanaşı Türkmənistan qazının Avropaya nəql olunması yollarını müzakirə ediblər. Həmçinin, Avropa İttifaqı ölkələri digər türk dövlətlərinin - Özbəkistan və Qazaxıstanla yanacağın Cənub Qaz Dəhlizinə ötürü- rülməsi istiqamətində aktiv danışıqlar aparılmaqdadır. Bu isə Cənub Qaz Dəhlizinin daha da genişlənməsinin təmin edilməsi deməkdir. Bu nəhəng coğrafi enerji arteriyasının qurulması üçünsə Avropa böyükhəcmli sərmayə yatırmalı və TransXəzərin maliyyələşməsi təmin etməlidir. Hazırda Aİ bu məsələni müzakirə edir və infrastrukturun yaradılması üçün sərmayə proqramı təmin olunsa, Azərbaycan və Türkiyə Avropaya qaz nəqlində tranzit ölkə kimi çıxış edəcək.

Beləliklə, enerjinin şaxələndirilməsi ilə bağlı mükəmməl siyasət yürüdən Azərbaycan çoxşəbəkəli ixrac bloklarını təchiz etməklə böyük coğrafi ərazilərin legitim tədarükçüsü statusu qazanmış olub.

*E.CƏFƏRLİ*

# Məkkə sazişinə üzv dövlətlərin vacib görüşü...

## Strateji Siyasi və Müdafiə Komitəsinin ilk iclasının keçirilməsi bunun göstəricisidir

Pakistan, Səudiyyə Ərəbistanı və Türkiyə üçtərəfli strateji və müdafiə əməkdaşlığı mexanizminin formalaşdırılmasına başlayıb. Avqustun 31-də İstanbulda üç ölkə arasında imzalanan Məkkə Birgə Müdafiə Sazişi çərçivəsində yaradılan Strateji Siyasi və Müdafiə Komitəsinin ilk iclasının keçirilməsi bunun göstəricisidir. Türkiyə, Pakistan və Səudiyyə Ərəbistanının dövlət rəsmilərinin iştirak etdiyi görüşdə beynəlxalq təhlükəsizlik, müdafiə imkanlarının inkişaf etdirilməsi, üç ölkənin silahlı qüvvələri arasında qarşılıqlı fəaliyyət imkanlarının artırılması, müdafiə sənayesində birgə istehsal, tədqiqat və inkişaf əməkdaşlığının genişləndirilməsi, terrorla mübarizədə birgə səylərin gücləndirilməsi məsələləri müzakirə olunub.

### Regional təhlükəsizlik nizamında dəyişikliklər...

İclas zamanı komitənin müəyyən edəcəyi birgə fəaliyyət istiqamətləri üzrə işləri əlaqələndirəcək katibliyin və digər mexanizmlərin çərçivəsinin müəyyənləşdirilməsi, qarşıdakı dövrdə atılacaq addımlar üzrə yol xəritəsinin hazırlanması qərara alınıb. Məkkə Birgə Müdafiə Sazişinin regionda təhlükəsizlik, sülh və sabitliyin möhkəmləndirilməsinə, məsələlərə əməkdaşlığa əsaslanan təhlükəsizlik yanaşması ilə baxılmasına və qarşıdurma əvəzinə əmin-amanlıq və rifahın prioritet seçilməsinə yönəldiyi vurğulanıb.

Xatırladaq ki, ölkələr arasındakı “Birgə Müdafiə Sazişi” avqustun 7-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Səudiyyə Ərəbistanının vəliəhdi Məhəmməd bin Salman və Pakistanın Baş naziri Şahbaz Şərif tərəfindən Məkkədə imzalanıb. Türkiyə, Pakistan və Səudiyyə Ərəbistanının regionda və beynəlxalq aləmdə artan qeyri-sabitlik fonunda ortaq məsuliyyət və regional sahiblənmə anlayışı ilə imzalanan sənəd regional və qlobal miqyasda təhlükəsizlik, sülh, sabitlik və rifahın təşviq edilməsini, həmçinin birgə çəkindirmə imkanlarının artırılmasını hədəfləyir.

Ümumiyyətlə, Məkkə sazişi regional təhlükəsizlik nizamında dəyişikliklərdən xəbər verir. Böyük dövlətlərin öhdəliklərinin getdikcə daha seçici xarakter aldığı, münaqişələrin əhatə dairəsinin isə sürətlə genişləndiyi bir şəraitdə regional dövlətlər daha böyük məsuliyyəti öz üzərinə götürür, kollektiv çəkindirmə arxitekturasının yaradılması istiqamətində addımlar atırlar. Ankara, Ər-Riyad və İslamabadın atdığı addımlar bu yeni qlobal tendensiyanın bir hissəsidir.




Birgə səylərin məqsədi Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistanın strateji imkanlarını genişləndirmək, həssaslığını azaltmaq və xarici siyasət sahəsində təsir imkanlarını artırmaqdır.

Ankara hesab edir ki, Səudiyyə Ərəbistanı və Pakistanla müdafiə sahəsində əməkdaşlıq yalnız bu ölkələrin öz təhlükəsizliyinə deyil, bütün regionda sülh və sabitliyin təmin olunmasına, eləcə də təhdidlərin qarşısının alınması imkanlarının artırılmasına mühüm töhfə verəcək. Saziş müdafiə nazirləri, xarici işlər nazirləri və Baş Qərargah rəislərinin iştirakı ilə mexanizmlərin yaradılmasını, ən yüksək səviyyədə koordinasiyanın həyata keçirilməsini nəzərdə tutur. Əməkdaşlığa komanda-qərargah və səhra təlimləri ilə başlanacaq, sonrakı mərhələlərdə isə bu əməkdaşlıq quru, dəniz və hava qüvvələrinin, hava hücumundan müdafiə vasitələrinin və pilotsuz sistemlərin iştirakı ilə birgə təlimlərə çevriləcək.

Ankara Ər-Riyad və İslamabadla əməkdaşlığın prioritet istiqamətləri sırasına pilotsuz sistemləri, radioelektron mübarizəni və süni intellektlə dəstəklənən sistemləri də daxil edir. Lakin sazişə yalnız üç ölkə arasında hərbi əməkdaşlığın gücləndirilməsi kimi baxılması natamam yanaşma olardı. Nəzərə alaq ki, Məkkə sazişi beynəlxalq münasibətlər sistemində qeyri-müəyyənliyin dərinləşməsinə cavabdır. Belə ki, böyük dövlətlərin, xüsusilə ABŞ-ın təhlükəsizlik sahəsində öhdəlikləri daha seçici xarakter alıb, regional münaqişələr isə risk və çağırış zonasını formalaşdırır. Bu baxımdan Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın “ölkənin təhlükəsizliyi onun sərhədlərindən başlamır” sözləri, eləcə də üç ölkənin “regionda eskalasiyanın yeni mərhələlərinin qarşısını almağa çalışdıqlarını” bildirməsi diqqətçəkən məqamdır. Saziş göstərir ki, müasir dünyada orta güclər dəyişən beynəlxalq nizama uyğunlaşmağa, güc elementlərini birləşdirməyə və strateji manevr imkanlarını genişləndirməyə çalışırlar.

Əsas məsələ Ankara, Ər-Riyad və İslamabadın siyasi iradəsinin nə dərəcədə institusional və operativ potensiala çevriləcəyi, eləcə də razılaşmanın real münaqişə və böhran şəraitində necə həyata keçiriləcəyidir. Xüsusilə, Türkiyənin üzvlüyü alyansın müdafiə qabiliyyətlərini daha da gücləndirəcək və ona əlavə geosiyasi təsir göstərəcək. Beynəlxalq ekspertlər də hesab edirlər ki, Ankaranın bu alyansa qoşulması Yaxın Şərq və Cənubi Asiyada yeni təhlükəsizlik balansının formalaşmasına təsir göstərəcək. Nəzərə almaq lazımdır ki, Türkiyə NATO-nun ikinci ən böyük ordusuna sahibdir. Digər vacib məqam odur ki, Türkiyə son 20 ildə öz hərbi gücünü əhəmiyyətli dərəcədə artırıb. Bu dövrdə Türkiyə çox sürətlə öz müdafiə sənayesini gücləndirib və ordusunu ən müasir hərbi texnika və atıcı silahlarla təmin edib. Hazırda Türkiyə dünyanın ən böyük pilotsuz uçuş aparatları (PUA) istehsalçısıdır. Ankara bundan sonra da diqqətini pilotsuz döyüş platformalarının işlənib hazırlanmasına

### Türkiyənin iştirakı müttəfiqliyi gücləndirəcək

yönəldəcək və ölkə üçün istənilən potensial təhdidin qarşısını almaq üçün çoxsəviyyəli “Polad günbəz” hava hücumundan müdafiə sistemi yaradacaq. Artıq uzunmənzilli hava hücumundan müdafiə sistemi olan “Siper Blok-1” Türkiyə Silahlı Qüvvələrinin arsenalına daxil edilib. “Siper Blok-1” ölkənin “Polad Günbəz” (“Çelik Kubbe”) sisteminin yeni elementinə çevrilib.

Türkiyə mediası yazır ki, sözügedən sistem ABŞ istehsalı olan “Patriot” və Rusiya istehsalı olan “S-400”ə bənzərdir.

Bundan başqa, Türkiyə sualtı qayıq layihəsini də uğurla reallaşdırır. Hələ 2015-ci ildə Yeni Tip Sualtı Qayıq Layihəsi çərçivəsində yerlilik göstəricisi yüksək olan “Type-214TN (Reis)” sinfinə məxsus sualtı qayıqların istehsalına başlayan Türkiyə 2017-ci ilin iyun ayında MİLDEN (Milli Sualtı Qayıq) layihəsinə start verib. İlk gəminin 2031-ci ilə qədər tamamlanacağı gözlənilir. Türkiyə ən yeni nəsil texniki göstəricilərə malik qırıcılar, helikopterlər və avtomobillər də istehsal edir. Türkiyə milli döyüş təyyarəsi “KAAN”ı istehsal etməklə dünyada 5-ci nəsil qırıcı istehsal edən 5 ölkədən biri sayılır. Xatırladaq ki, Türkiyənin “KAAN” milli hərbi təyyarəsi 2024-cü ilin fevralında ilk uçuşunu uğurla həyata keçirib. Bütün bunlar Türkiyənin hərbi sənayesinin mühüm nailiyyətləridir. Təbii ki, belə güclü hərbi potensiala sahib olan ölkə ilə digər dövlətlər hesablaşmalıdır. Lakin Ankara bu gücü ilə sadəcə öyünmür, dünyada sülh və təhlükəsizliyin təmin olunması təşəbbüslərini davam etdirir.

Bu baxımdan, Ankaranın Pakistan-Səudiyyə Ərəbistanı hərbi alyansına qoşulması Yaxın Şərqdə təhlükəsizlik və sabitlik üçün əhəmiyyətli təsir göstərəcək.

### Sazişə yeni ölkələr qoşula bilər

Nəticə etibarilə, mövcud vəziyyət orta güclərin əhəmiyyətini artırır. Onlar böyük aktorları təkbaşına əvəz edə və ya qlobal güc balansını tamamilə yenidən qura bilməzlər. Lakin hərbi, iqtisadi, diplomatik və texnoloji imkanlarını birləşdirərək regional nizamın formalaşdırılmasında daha səmərəli rol oynaya bilərlər. Orta güclərin potensialı onların böyük dövlətlərə bərabər olmasından deyil, konkret sahələrdə nəticələr əldə etməyə imkan verən alətlərə malik olmalarından irəli gəlir. Beləliklə, Məkkə sazişi faktiki olaraq üç ölkə arasındakı münasibətləri ümumi strateji təməl üzərində birləşdirib. Sazişin əsl əhəmiyyəti müxtəlif güc elementlərinin vahid çəkindirmə sistemi çərçivəsində birləşdirilməsindən ibarətdir. Üstəlik, çəkindirmə yalnız hərbi potensialdan deyil, siyasi iradənin nüfuzundan və birgə fəaliyyət göstərmək bacarığından da asılıdır.

Üçtərəfli müdafiə sazişinin əhatə dairəsinin Misir kimi ölkələrin cəlb edilməsi ilə genişləndirilməsi bu cür təşəbbüslərin əhəmiyyətini daha çox artıracaq. Bu baxımdan Türkiyənin xarici işlər naziri Hakan Fidanın avqustun 13-14-də Qahirəyə səfəri diqqət çəkir. Səfər zamanı digər məsələlərlə yanaşı, regionda təhlükəsizlik mövzusu da müzakirə olunub. Bütün bunlar göstərir ki, yaxın gələcəkdə Misirin də Məkkə sazişinə qoşulması ehtimalı yüksəkdir.

**N.BAYRAMLI**

# ABŞ və Şimali Koreya arasında sammit keçirilə bilər



ABŞ-Cənubi Koreya birgə hərbi təlimlərinin miqyasının əhəmiyyətli dərəcədə azaldılmasından və Prezident Donald Trampın bu il Kim Çen Inla görüşmək planlarının olduğuna dair açıqlamasından sonra ABŞ və Şimali Koreya liderləri arasında görüşün keçirilməsi barədə ehtimallar artıb.

AZƏRTAC xəbər verir ki, Seul Milli Kəşfiyyat Xidmətinin (NIS) qapalı brifinqindən sonra Cənubi Koreya parlamentinin deputatı Yun Qon Yonun sözlərinə görə, Şimali Koreya və ABŞ dialoqun bərpasına doğru potensial irəliləyişin mümkün əlamətlərini nümayiş etdirirlər.

Lakin rəsmi şəxslər bildiriblər ki, Pxenyan və Vaşinqton arasında hər hansı konkret və ya birbaşa təmasın baş verdiyi hələlik rəsmi şəkildə təsdiqlənməyib.

“Şimali Koreya ilə ABŞ arasında sammitə gəlincə, ekspertlərin qiymətləndirməsinə görə, danışıqlar istənilən vaxt keçirilə bilər”, - deyə deputat Yun Qon Yon jurnalistlərə bildirib.

Avqustun ortalarında ABŞ Prezidenti Donald Tramp KXDR lideri Kim Çen Inla yaxşı münasibətlərini xatırladıb və Koreya Respublikası ilə keçirilən hərbi təlimlərin miqyasının azaldılmasını tapşırıb. “The Wall Street Journal” qəzeti xəbər verib ki, Donald Tramp köməkçilərindən cari ilin payızında KXDR lideri ilə görüş təşkil etmələrini tələb edib.

# BMT-nin beş xüsusi məruzəçisi Fransadan izahat tələb edir

BMT-nin beş xüsusi məruzəçisi Avropa Parlamentinin deputatı, “Əyilməz Fransa” (La France insoumise LFI) partiyasının üzvü Rima Hassanla bağlı Fransada aparılan məhkəmə prosedurları ilə əlaqədar hökumətə rəsmi müraciət edib.

AZƏRTAC xəbər verir ki, bu barədə LFI yaydığı açıqlamada bildirib. Partiyanın məlumatına görə, BMT ekspertləri Rima Hassanın ictimai mövqeyinin ictimai debat və ümumi maraq doğuran məsələlər çərçivəsində olduğunu vurğulayıblar.



LFI-nin məlumatına görə, məruzəçilər deputat barəsində çoxsaylı araşdırmaların aparılmasından, bu araşdırmaların demək olar ki, hamısının nəticəsiz başa çatmasından, təkrar dindirmələrdən və polis nəzarətində saxlanılmasından narahatlıq ifadə ediblər.

Ekspertlər bu tədbirlərin məhkəmə və siyasi təqib xarakteri daşıya biləcəyini bildiriblər. Onların fikrincə, bu hallar ifadə və fikir azadlığı, şəxsi həyatın toxunulmazlığı, sərbəst toplaşmaq azadlığı, bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi, eləcə də ictimai həyatda iştirak hüququ da daxil olmaqla, bir sıra insan hüquqlarının pozulmasına səbəb ola bilər.

Məruzəçilər Fransada Fələstin xalqının hüquqlarını müdafiə edən şəxslərə qarşı təzyiqlərin artmasından da narahat olduqlarını bildiriblər. Onların fikrincə, terrorçuluğun təbliği ilə bağlı hüquqi müddəalardan istifadənin genişlənməsi, hətta məhkumluqla nəticələnmədiyi hallarda belə, ifadə azadlığına və demokratik plüralizmə çəkindirici təsir göstərə bilər.

Fransadan rəsmi izahat tələb olunur

BMT məruzəçiləri Fransa hökumətindən Rima Həsənin polis nəzarətində saxlanılmasının əsaslarını və bu tədbirin mütənasibliyini izah etməyi, mediaya məlumat sızdırılması ilə bağlı iddialara, təkrar dindirmələrə və deputata qarşı tətbiq edilən digər nəzarət tədbirlərinə aydınlıq gətirməyi tələb ediblər.

Onlar, həmçinin Fransadan “terrorçuluğun təbliği” maddəsinin təkrar tətbiqinin ölkənin ifadə azadlığı ilə bağlı beynəlxalq öhdəliklərinə nə dərəcədə uyğun olduğunu açıqlamasını istəyiblər.

LFI BMT məruzəçilərinin müraciətini “Fransada hüquqi dövlətin geriləməsi və ədliyyənin siyasi debatların qarşısını almaq üçün alətə çevrilməsi ilə bağlı ciddi siyasi xəbərdarlıq” kimi qiymətləndirib.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





# Xarabalıqdan həyata qayıdış...

## Ağdamın yarımçıq qalmış səhərləri yenidən açılır

Bir vaxtlar xarabalığa çevrilən Ağdamda bu gün evlərin işıqları yanır, məktəblərin qapıları açılır, yeni yollar salınır. 27 il işğal altında qalan "Ruhlar şəhəri"ndə artıq yeni həyatın ilk səhifələri yazılır. Uzun illər ərzində həsrətlə gözlənilən Böyük Qayıdış artıq sadəcə bir arzu deyil, reallıqdır. Vaxtilə doğma yurd-yuvasından didərgin düşən ailələr bu gün Ağdamın küçələrinə, evlərinə, xatirələrinin olduğu torpaqlara geri dönürlər.

### 117 ailə yola salındı

Dünən Ağdama növbəti köç karvanı yola salınıb. Bu mərhələdə 117 ailə (362 nəfər) köçürülüb. Köçürülən şəxslər arasında Ağdamın adını yalnız xatirələrdən, ailə söhbətlərindən və köhnə fotolardan tanıyanlar da var. İndi isə həmin insanlar Ağdamı sadəcə xatırlamayacaq, onu yaşayacaqlar.

Rəsmi məlumata görə, bu köçlə birlikdə 2026-cı il sentyabrın 1-dək Ağdam şəhərinə ümumilikdə 931 ailə-3363 nəfər köçürülüb. Bu, sadəcə 117 ailənin bir şəhərdən digərinə köçməsi deyil. 30 ildən artıq davam edən həsrətin növbəti dəfə sona çatmasıdır.

### Ağdamın yarımçıq qalmış şəhəri

Ağdam bir zamanlar Qarabağın ən canlı şəhərlərindən biri idi. Burada həyat qaynayırdı, küçələr insanlarla dolu idi, evlərdən uşaqların səsi gəlirdi. Lakin 1993-cü ildə şəhər işğala məruz qaldı. Sonrakı illərdə Ağdamın adı Azərbaycanın yaddaşında yalnız bir şəhərin adı kimi deyil, həm də dağıdılmış yurdun, yarımçıq qalmış həyatların simvolu kimi yaşadı.

İşğal dövründə şəhər və rayonun yaşayış məntəqələri, evlər, təsərrüfat obyektləri, sosial və digər infrastrukturlar dağıdıldı. 2020-ci ildə Ağdam azad ediləndə qarşıda yalnız torpağın geri qaytarılması deyil, həm də həmin torpaqda həyatı yenidən qurmaq kimi nəhəng vəzifə dayanırdı.

### Ağdamın taleyini dəyişən tarix

2020-ci ilin noyabrında Azərbaycan tarixinin ən mühüm səhifələrindən biri açıldı. Vətən müharibəsi nəticəsində Ağdam rayonu işğaldan azad edildi. Noyabrın 20-də Azərbaycan bayrağı yenidən Ağdamda dalğalandı. Üçrəngli bayrağımızın Ağdamda ucaldılması 27 illik fasilədən sonra şəhərin yenidən Azərbaycana qayıtmasının rəmzinə çevrildi. Əslində bu, yalnız hərbi qələbənin son nöqtəsi deyildi. Bu, böyük bir quruculuğun başlanğıc xətti idi. Çünki azad edilmiş şəhərin qarşısında iki yol vardı: xarabalıq kimi qalmaq və ya yenidən qurulmaq. Azərbaycan ikinci yolu seçdi.

Ağdamın mənzərəsi o qədər ağır idi ki, şəhəri görən insan üçün bir sual qaçılmaz görünürdü: Bu xarabalıqda yenidən şəhər yaratmaq mümkündürmü? Bu gün həmin sualın cavabı artıq göz qabağındadır.

### Xarabalığın yerində yeni şəhər...

Ağdamın yenidən qurulması adi şəhərsalma layihəsi deyil. Burada söhbət dağıdılmış şəhərin yenidən salınmasından gedir.

Yeni Ağdam konsepsiyasında yaşayış binaları ilə yanaşı məktəblər, uşaq bağçaları, tibb müəssisələri, yollar, ictimai məkanlar, nəqliyyat infrastrukturu, biznes və istehsal sahələri bir-birini tamamlayır. Başqa sözlə, məqsəd sadəcə ev tikmək deyil. Məqsəd şəhər qurmaqdır. Bu fərq xüsusilə vacibdir. Çünki Böyük Qayıdış yalnız insanların doğma torpağa fiziki qayıdışı ilə tamamlanmır. İnsanların burada işləməsi, övladlarının məktəbə getməsi, səhiyyə xidmətlərindən yararlanması, biznes qurması, sosial və mədəni həyatın formalaşması lazımdır. Ağdamda görülən işlərin məntiqi də məhz bunun üzərində qurulur.

### Yeni Ağdamın infrastrukturu

Şəhərin dirçəldilməsi üçün ilk növbədə onun digər bölgələrlə əlaqəsi təmin edilməlidir. Bu istiqamətdə Bərdə-Ağdam avtomobil yolu və Ağdam dəmir yolu xətti xüsusi əhəmiyyət daşıyır. Ağdamda Dəmir Yolu və Avtovağzal Kompleksinin istifadəyə verilməsi isə şəhərin nəqliyyat xəritəsində yeni mərhələ açır. Ağdamda Bərdə-Ağdam avtomobil yolu, 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyası, Xaçınçay su anbarı, Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksi, həmçinin Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi istifadəyə verilib. Bu siyahı əslində yeni şəhərin necə qurulduğunu göstərən bir xəritədir.

Beləliklə, Ağdam təkcə yenidən tikilmir. O, müasir şəhər modelinə uyğun şəkildə yenidən formalaşdırılır.

### Qayıdışın ən gözəl mənzərəsi...

Bir şəhərin gələcəyini görmək üçün, onun təhsil ocaqlarına baxmaq lazımdır. Ağdamda bu mənzərə artıq dəyişib. Şəhərin 1 nömrəli tam orta məktəbinin yeni binası 960 şagird üçün nəzərdə tutulub. Üçmərtəbəli məktəbdə laboratoriyalar, kitabxana, muzey, idman və akt zalları, yeməkxanalar və STEAM otaqları yaradılıb. Məktəbin məqsədi Böyük Qayıdış çərçivəsində Ağdama qayıdan uşaqların müasir standartlara uyğun təhsil almasını təmin etməkdir.

Bir vaxtlar Ağdamdan didərgin düşən ailələrin uşaqları başqa şəhərlərin məktəblərində oxuyurdular. İndi isə Ağdamda yeni nəsil yetişəcək. Bu, bəlkə də Böyük Qayıdışın ən böyük mənasıdır. Çünki evlərə qayıdan yalnız valideyn deyil. Bir şəhərin gələcəyi də geri qayıdır...

### İqtisadi həyat da yenidən qurulur

Məlumdur ki, şəhərin yaşaması üçün yalnız evlər kifayət deyil. İqtisadi həyat da lazımdır. Bu baxımdan Ağdam Sənaye Parkının yaradılması xüsusi əhəmiyyət daşıyır.

190 hektarlıq ərazini əhatə edən Ağdam Sənaye Parkı işğaldan azad edilmiş ərazilərdə iqtisadi fəallığın formalaşdırılmasının mühüm layihələrindən biridir. Parkda müxtəlif istehsal müəssisələri yaradılır, məhsullar həm daxili bazara, həm də ixrac üçün yönəldilir. 2025-ci ilin məlumatına görə, parkda artıq bir sıra müəssisələr fəaliyyət göstərir və yüzlərlə daimi iş yeri yaradılıb.

Burada ayaqqabıdan mebelə, tikinti materiallarından müxtəlif sənaye məhsullarına qədər istehsal sahələrinin yaradılması planlaşdırılır və həyata keçirilir. Yeni investisiyalar isə Ağdamın təkcə yaşayış məntəqəsi deyil, iqtisadi mərkəz kimi də formalaşdığını göstərir. Ağdamda yaradılan sənaye infrastrukturu məhz bu baxımdan gələcək üçün mühüm rol oynayır.



### Şəhərin yaddaşı da geri qayıdır

Ağdamda yalnız yeni binalar tikilmir. Bu şəhərin bir tarixi, bir yaddaşı, bir ruhu var. Ona görə də bərpa prosesi yalnız müasir tikililərin inşası ilə məhdudlaşmır. İmarət Kompleksi, tarixi məscidlər və digər mədəni irs nümunələri də Ağdamın yeni simasının bir hissəsinə çevrilir. 2025-ci ildə Ağdamın Qiyaslı kəndindəki tarixi məscidin bərpadan sonra açılması, Muğam Mərkəzinin fəaliyyətə başlaması, İmarət Kompleksində keçirilən tədbirlər şəhərin mədəni həyatının da yenidən canlandığını göstərir. Bu mənada Ağdamın bərpası iki istiqamətdə gedir: Bir tərəfdə gələcəyin şəhəri qurulur. Digər tərəfdə keçmişin yaddaşı qorunur.

Xatırladaq ki, 2025-ci il martın 27-də Ağdama keçmiş məcburi köçkünlərin qayıdışı başladı. Bundan sonra köç karvanları bir-birini əvəz etdi. Hər karvanın öz hekayəsi var. Kiminsə Ağdamda uşaqlıq evi olub. Kiminsə ata-babası orada yaşayıb. Kiminsə yaddaşında yalnız küçələrin, həyətlərin, qonşuların adı qalıb. Amma bütün bu hekayələri birləşdirən bir cümlə var: "Ağdama qayıtdıq...".

***Yeganə BAYRAMOVA***



## Azərbaycanın çimərlik voleybolu üzrə yığmaları Avropa çempionatlarında iştirak edəcəklər



Azərbaycanın çimərlik voleybolu üzrə milli komandaları sentyabrda keçiriləcək müxtəlif yaş qrupları üzrə Avropa çempionatlarında iştirak edəcəklər.

Voleybol Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, ilk olaraq U-20 yığmaları 3-6 sentyabr tarixlərində İtaliyanın Battipaqlia şəhərində təşkil olunacaq qitə birinciliyində mübarizə aparacaq.

Yarışda ölkəmizi oğlanlar arasında İbrahim Məmmədov / Muhamməd Aslanlı, qızlar arasında isə Səbinə Əlizadə / Leyla Əliyeva cütləri təmsil edəcək.

Daha sonra U-22 milli komandaları 10-13 sentyabr tarixlərində İspaniyanın Madrid şəhərində baş tutacaq Avropa çempionatında iştirak edəcəklər. Bu yaş qrupunda da Azərbaycanı oğlanlar arasında İbrahim Məmmədov / Muhamməd Aslanlı, qızlar arasında isə Səbinə Əlizadə / Leyla Əliyeva cütləri təmsil edəcək.

U-18 yığmaları isə 17-20 sentyabr tarixlərində Türkiyənin İzmir şəhərində keçiriləcək Avropa çempionatında mübarizə aparacaq. Bu yarışda oğlanlar arasında Emil Safronov / Tamerlan Tağıyev, qızlar arasında isə Dilarə Ağayeva / Leyla Əliyeva cütü ölkəmizi təmsil edəcək.

## Azərbaycan Premyer Liqasının III turu antirekordla əlamətdar olub

Futbol üzrə Azərbaycan Premyer Liqasının III turu antirekordla əlamətdar olub.

Peşəkar Futbol Liqasından AZƏRTAC-a verilən məlumata görə, baş tutan 6 qarşılaşmada qapılara cəmi 5 qol vurulub. Orta məhsuldarlıq 0,83-ə bərabər olub.

"Qəbələ" - "Şamaxı" görüşü qolsuz başa çatıbsa, digər 5 qarşılaşmanın hərəsində 1 top vurulub. "Kəpəz" - "Turan Tovuz" və "Zirə" - "Neftçi" matçlarında meydan sahibi, "Şəfa" - "İmişli", "Sumqayıt" - "Qarabağ" və "Araz-Naxçıvan" - "Sabah" oyunlarında isə qonaq komanda bir topla qalib gəlib.



Orta məhsuldarlığın 0,83 olması son 10 mövsüm üçün antirekorddur. Daha aşağı göstəriciyə sonuncu dəfə 2016/2017-ci illər mövsümünün II turunda təsadüf olunub. 2016-cı il avqustun 11-14-də keçirilən 4 qarşılaşmada cəmi 3 qol vurulub. Həmin vaxt orta göstərici 0,75 olub. Maraqlı məqam odur ki, indiki kimi avqusta təsadüf edən qarşılaşmalardan 10 il sonra da üz-üzə gələn 3 cüt olub. "Sumqayıt" - "Qarabağ" (0:2) və "Neftçi" - "Zirə" (0:1) oyunlarında 10 il əvvəl də eyni komandalar qalib gəlmişdisə, "Qəbələ" - "İnter" (indiki "Şamaxı") qolsuz başa çatıb. "Kəpəz"lə AZAL-ın duelində də qol qeydə alınmayıb.

III turun daha bir diqqətçəkən məqamı 6 oyundan 5-nin 1:0 hesabı ilə başa çatmasıdır. Premyer Liqanın PFL bayrağı altında keçirildiyi dövrdə bir turda 5 matç 1:0 nəticələnməyib. Bu müddətdə 10 dəfə turun dörd qarşılaşmasının taleyini bir top həll edib. Hətta bunun ikisi ötən mövsüm 6 matçdan ibarət turlarda qeydə alınıb. 2023/2024-cü illər mövsümünün sonuncu - XXXVI turunda isə indiki kimi bir görüş fərqli nəticələnib. Baş tutan 5 oyundan 4-ü 1:0, biri digər hesabla yekunlaşıb. 2024-cü il mayın 25-26-da keçirilən turda "Sumqayıt" "Qəbələ"yə, "Zirə" "Səbail"ə, "Turan Tovuz" "Kəpəz"ə evdə, "Sabah" "Neftçi"yə səfərdə 1 qolla qalib gəlib. Yalnız "Araz-Naxçıvan" - "Qarabağ" duelində (2:2) hesab fərqli olub.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4472
Sifariş: 1130
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova